# SİYASİ SÜREÇLER VE KÜRESELLEŞME

**Prof. Dr. Gülzar İBRAHİMOVA**
**Niğde Ömer Halisdemir Üniversitesi**

**Vagif VALIZADE**
**Yüksek lisans ögrencisi, Karabük Üniversitesi,**

**Özet**

Makale, politik küreselleşme ile ilgili çeşitli teorileri analiz etmektedir. Küreselleşmenin politik süreçlerdeki sorunları ve özellik kazanan devletin dünyaya başarılı politik, ekonomik ve sosyal entegrasyonu konuları incelenmiştir. Siyasi meseleler konusundaki tartışmalarda ulusal devletin rolü, devletlerin küreselleşmeyi kullanabilmesi için devlet yapılarını iyileştirilmesi, devlet fonksiyonları üzerindeki tekellerin kaybedilmesi, ulusal devletin merkezi konumunu güçlü bir rekabet ortamında sürdürülmesi, submilli zeminde sorunların çözümünde devletlerin konsolidasyon konumu, küreselleşmede devlet egemenliğine karşı önemli tehditler, küreselleşmenin karar verme seviyesine, demokratik kurumlara, devletlerin güvenlik politikalarına, iç ve dış politikalara etkisi; silahsızlanma, uluslararası terörizmle mücadele, ortak işbirliği, barışın teşviki, yabancı savunma ve yatırım, dış ticaret problemleri veb bu kibi soruları araştırıyor.

Gösterilir ki, uluslararası ilişkilerin küreselleşmesi, ulusal politik arazilerin ve artan farkındalığın uluslararasılaşması politikada yeni önemli işlevlerin yaratılmasını gerekli ediyor. Siyasal alanda, küreselleşme ulusal devlet, ulusal-ahlaki değerler sorunuyla karşı karşıyadır. Analiz edilen teorilerin karakteristik özellikleri, gelişmekte olan ülkelerin çoğunluğunu dünya ekonomisinde ve politik sistemde bütünleştirmenin yolları ve yöntemleri için teorik araştırmanın politik değerlendirmesi ile belirlenir. Ayrıca, modern devletin siyasal işlevinin ana yönlerini ve egemenlik sorununun uygulanmasını ve küreselleşme alanında uluslararası örgütlerin faaliyetlerini analiz eder.

Sonuç olarak, yeni politik kurumların ortaya çıkması ve var olanların dönüşümü, dünyanın hızlanan politik küreselleşmesiyle bağlantılı olarak gerçekleşmektedir. Devlet dışında kalan daha önemli siyasi kurumlar ortak genel bir siyasi ve ekonomik standartı ve kolektif bir güvenlik sistemi oluşturur. Siyasi alanda, uluslararası örgütlerin faaliyetleri, dünyadaki siyasal süreçlerin düzenlenmesine odaklanır ve bu modelin yalnızca bir grup devletin çıkarına değil, aynı zamanda tüm dünya devletlerinin yararına hizmet etmesi gereken bir uluslararası ilişkiler modeline dayandırılmalı ve dünyadaki tüm ülkelerde insan haklarını korumalıdır.

**Anahtar kelimeler**: küreselleşme, siyaset, devlet, uluslararası, teori, sistem

# POLITICAL PROCESSES AND GLOBALIZATION

**Abstract**

The article analyzes various theories about political globalization. The issues of globalization in political processes, and successful political, economic and social integration of the state into the world system are investigated. Author also examines some of the significant issues such as role of nation-state in the discussions of political issues, improvement of state structures in order to enable states to manage globalization process, the loss of monopolies over the state functions, the maintenance of the central position of nation-state in a strong competitive environment, a consolidated position of the state in the process of problem solving on submissive grounds, the main threats towards the state sovergnity in globalization process, the effect of globalisation on the internal and foreign policy of the states, as well as, security issues and democratic institutions; disarmament, international counter terrorism actions, joint cooperation, peace promotion activities, foreign defense and investment, foreign trade issues and etc.

It points out that globalization of international relations, and internationalization of increasing awareness and national political territories require the establishment of new important functions of politics. The nation-state and national moral values are the main issues that challenges globalization in political sphere. Characteristics of analyzed theories are determined by the political evaluation of the theoretical research for ways and means of integration of the majority of developing countries in the world economy and political system. It also analyzes the main aspects of political function of the modern state and application of the underlined question of sovereignty and activities of international organizations in the field of globalization.

Consequently, the establishment of new political institutions or the transformation of the existing institutions take place in accordance with accelerating political globalization of the world. More significant over-state institutions create common political and economic standards and a collective security system. In political arena, international organizations focuses on the regulation of political processes in the world, and should be

based on a model of international relations that defend not only the interests of a particular group of states but also the interest of all nations, and provide human rights in all over the world.
**Key words**: globalisation, politics, state, international, theory, system

## SİYASİ PROSESLƏR VƏ QLOBALLAŞMA

**Xülasə**

Məqalədə siyasi qloballaşma ilə bağlı müxtəlif nəzəriyyələr təhlil edilir. Siyasi proseslər sistemində qloballaşma və dövlətin dünyaya uğurlu siyasi, iqtisadi və sosial inteqrasiyası məsələləri araşdırılır. Siyasi müstəvidəki müzakirələrdə spesifikasiya qazanan milli dövlətin rolu, insanların qloballaşmadan istifadə edə bilməsi üçün dövlət strukturları təkmilləşməsi, dövlətin hakimiyyət funksiyalarına monopoliyalarının itirilməsi, milli dövlətin güclənən rəqabətdə öz mərkəzi mövqeyini saxlaması, submilli zəmində məsələlərin həllində dövlətlərin konsolidasiya mövqeyi, qloballaşmada dövlət suverenliyinə qarşı əsas təhdidlər; qloballaşmanın qərar qəbuletmə səviyyəsinə, eləcə də demokratik institutlara, o cümlədən dövlətlərin təhlükəsizlik siyasətlərinə, daxili və xarici siyasətlərinə təsiri; silahların tərkisilah edilməsi, beynəlxalq terrorizmə qarşı mübarizə, birgə əməkdaşlıq, sülhə həvəsləndirmə, xarici müdafiə və investisiyalar, xarici ticarət problemləri vəs. bu kimi suallar araşdırırlar.

Göstərilir ki, beynəlxalq münasibətlərin qloballaşması, milli siyasi ərazilərin və artan məlumatlanmanın beynəlmiləlləşdirilməsi siyasətdə yeni vacib funksiyaların yarandığını zərurui edir. Siyasi sahədə qloballaşma milli dövlətçilik, milli-mənəvi dəyərlər problemi ilə qarşılaşır. Analiz edilən nəzəriyyələrin xarakterik xüsusiyyətləri dünya iqtisadiyyatının və siyasi sistemindəki inkişaf etməkdə olan ölkələrin əksəriyyətinin inteqrasiya yolları və metodlarının nəzəri axtarışının siyasi qiymətləndirilməsilə ilə təyin olunur. Həmçinin müasir dövlətin siyasi funksiyasının əsas istiqamətləri və dövlətin suverenliyi probleminin tətbiqinin gerçəkləşdirilməsi, eləcə də siyasi sahədə qloballaşma sahəsində beynəlxalq təşkilatların fəaliyyəti təhlil edilir.

Belə qənaətə gəlinir ki, dünyanın sürətlənməkdə olan siyasi qloballaşması prosesi ilə əlaqədar olaraq yeni siyasi institutların yaranması və artıq fəaliyyət göstərənlərin isə transformasiyası baş verməkdədir. Dövlətin fövqündə duran daha əhəmiyyətli siyasi institutlar ümumsiyasi və ümumiqtisadi standartlar formalaşdırır və kollektiv təhlükəsizlik sistemi yaradır. Siyasi sahədə qloballaşmada beynəlxalq təşkilatların fəaliyyətləri dünyada baş verən siyasi proseslərin tənzimlənməsinə yönəldilir. Beynəlxalq münasibətlərin elə bir modelinə əsaslanmalıdır ki, bu model bir qrup imtizaylı dövlətlərin mənafeyinə deyil, dünya dövlətlərinin hamısının mənafeyinə xidmət etsin və dünyanın bütün ölkələrində insan hüquqları qorunsun.

**Açar sözlər:** qloballaşma, siyasət, dövlət, beynəlxalq, nəzəriyyə, sistem

## Giriş

Qloballaşma, hər bir dövlətin dünyaya uğurlu siyasi, iqtisadi və sosial inteqrasiyası məsələlərinin düzgün müəyyən edilməsində əsas amillərdəndir. Analitiklərə görə o iqtisadi, siyasi və mədəni istiqamətləri əhatə etməklə vahid strateji məqsədə: konkret aktorlar tərəfindən vahid mərkəzdən vahid qanunlar əsasında dünyanın idarə edilməsi və ya "qlobal dövlət"in formalaşdırılmasına xidmət edir (Bilbilik, 2008:5). Onunla məşğul olan siyasətçilər: siyasi müstəvidəki müzakirələrdə spesifikasiya qazanan milli dövlətin funksiyası sona çatdımı, yoxsa hələ oynayacağı həyati bir rolu varmı?; insanların qloballaşmadan istifadə edə bilməsi üçün dövlət strukturları necə təkmilləşməlidir?; dövlətin hakimiyyət funksiyalarına monopoliyalarının itirilməsi; milli dövlətin güclənən rəqabətdə öz mərkəzi mövqeyini necə saxlaması; submilli zəmində məsələlərin həllində dövlətlərin konsolidasiya mövqeyi; qloballaşmada dövlət suverenliyinə qarşı əsas təhdidlər; ictimai fikrin inkişafında, siyasətin formalaşmasında, qanunların hazırlanmasında dövlətin rolu; qloballaşmanın dövlət rəhbərliyinin səlahiyyətinə və dövlət qərar qəbuletmə səviyyəsinə, eləcə də demokratik institutlara, o cümlədən dövlətlərin təhlükəsizlik siyasətlərinə, daxili və xarici siyasətlərinə təsiri; silahların tərkisilah edilməsi, beynəlxalq terrorizmə qarşı mübarizə, birgə əməkdaşlıq, sülhə həvəsləndirmə, xarici müdafiə və investisiyalar, xarici ticarət problemləri vəs. bu kimim sualları

araşdırırlar. Odur ki, XXI əsrin əvvəllərində tədqiqatçılar qloballaşmanın iqtisadi, siyasi və mədəni təsirini mühüm sosial proses hesab edirlər [Sethi, 1983; Sethi, 1984].

Qloballaşma həm bolluq yaratmağa, istehsalın məhsuldarlığını, səmərəliliyini yüksəltməyə qadirdir, həm də qeyri-bərabərliyi dərinləşdirir, yeni şəraitə uyğunlaşmanı çətinləşdirir, müxtəlifliyi azaldır, vətəndaş cəmiyyətini sarsıdır. Günümüzdə baş verən hadisələr belə qənaətə gətirir ki, qloballaşma dünyanın qarşılıqlı asılılığını möhkəmləndirməklə yanaşı, çox vaxt yoxsulluğun müəyyən regionlarda cəmləşməsi ilə müşayiət olunan separatçılıq, yerliçilik meyllərini stimullaşdırır. Qloballaşma, bir tərəfdən, mövcud sistemin hakim mövqeyini möhkəmləndirir, digər tərəfdən isə, qeyri-ənənəvi zəmində münaqişələrə meyli üzə çıxarır.

**Siyasi qloballaşma anlayışı**

Qlobal problemlərin qlobal həllləri tələb etdiyi beynəlxalq münasibətlərin qloballaşması, milli siyasi ərazilərin və artan məlumatlanmanın beynəlmiləlləşdirilməsi, siyasətdə yeni vacib funksiyaları göstərir [9,8]. Qloballaşmanı siyasi proseslər sistemində araşdırarkən siyasi qloballaşma anlayışına aydınlıq gətirmək məqsədə müvafiqdir. Bu anlayışı tədqiqatçı M.V.İlin tərəfindən irəli sürülmüş aşağıdakı tərifə istinadən izah etmək olar. Bu tərifin müəllifi siyasi qloballaşmanı "millətlər, sivilizasiyalar, etnik mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin qazanılmasına və əvvəllər dünyanın parçalanmış hissələrini birləşdirən və bununla da orada birgə iştirak etməyə imkan verən qlobal idarəetmə strukturlarının yaranmasına aparan qarşılıqlı fəaliyyətin tədricən möhkəmləndirilməsi kimi" təyin edir (4,195). Beləliklə, adı çəkilən tədqiqatçı tərəfindən qloballaşmanın institusional aspektləri, xüsusən də idarə olunan və dayanıqlı inkişafa keçid perspektivləri ətraflı təhlil edilir və nəzərdən keçirilir.

Tədqiqatçılar qloballaşmanın özünü iqtisadi motivlərə söykənən siyasi tendensiya adlandırırlar. İ.Vallerstayn qeyd edir ki, qloballaşma bərabərsizliyi yaradan və gücləndirən prosesdir. Onun yanaşmasına görə, qloballaşma prosesinin əsas meyilləri: iqtisadi münasibətlərin inteqrasiyası və intensivləşməsi, qlobal və regional bazarlar uğrunda savaşların və rəqabətin güclənməsi, iqtisadi böhranların mütəmadi qaydada baş verməsi, iqtisadi qruplaşmaların yaranması, sərmayə axını və artımının daha da güclənməsi, transmilli korporasiyaların fəaliyyət dairəsinin genişlənməsidir (Wallerstein, 2009:80).

Bir çox müəlliflərə görə (P.Samuelson, İ.Vallerstayn, C.Neysbit, M.Ross, H.Bekker, U.Kristofer və s.) siyasi qloballaşma əsas məqsədi iqtisadi, siyasi, hərbi, ideoloji və mədəni mexanizmlərin və proseslərin "vahid əllər"də cəmləşdirilməsinə istiqamətlənən bir növ "qlobal imperatorluq" qurmaq uğrunda ortaya çıxarılmış ssenaridir. Şübhəsiz ki, mərkəzi aktor qismində ABŞ və onun Qərbi Avropadakı lokomotiv tərəfdaşları çıxış edirlər. P.Bergerə görə qloballşama araşdırmaçılarının yekun qənaəti odur ki, siyasi qloballaşma Amerikanın siyasi və iqtisadi hegemonluğunun bariz ifadəsidir (Babaoğlu, 2014:427). Başqa sözlə siyasi qloballaşma milli dövlətlər arasındakı sərhədlərin "əridilməsi"ni həyata keçirən transmilli tendensiyadır və o milli dövlətcilik, milli-mənəvi (milli özunudərk, milli ləyaqət) dəyərlər problemi ilə qarşılaşır. Siyasi qloballaşma şəraitində milli maraq məfhumu və prinsipi ikinci plana atılır, bununla da transmilli strateji hədəflər və maraqlar ön plana çəkilir. Qlobal vətəndaş cəmiyyətinin fəaliyyət göstərdiyi məkan dövlət sistemindən kənarda olsa belə, müəyyən siyasi və sosial məqsədlərlə dövlətə bağlı olduğundan dövlətlər, özünün müstəqil siyasi və iqtisadi kursunu nəzərdə tutan milli maraqlarını, eləcə də bazar münasibətlərinə tədricən keçidini təmin edən müxtəlif siyasi, iqtisadi və başqa ittifaqlara üz tuturlar. Buna müvafiq olaraq hər hansı bir milli dövlətin milli maraqlarının təmin olunması özlüyündə avtomatik olaraq "qloballaşma oyunu"nun ssenaristlərinin transmilli maraqlarının təmin olunması ilə ayrılmaz bağlılıq kəsb edir.

F.Kratoçvil qeyd edir ki, qloballaşma tendensiyasının fonunda "milli maraq" "ictimai maraq"dan, "transmilli maraq" isə "milli maraq"dan daha üstün önəm kəsb etməyə başlayır (Stanley, 2008: 32). Onun yanaşmasına görə, "milli maraq" fenomeni beynəlxalq münasibətlər sisteminin aparıcı prinsipidirsə, qloballaşma tendensiyasının intensivləşdiyi zaman və məkan şəraitində artıq "transmilli maraq" daha qabarıq və təsirli mahiyyətə sahibdir: " İctimai maraq anlayışından daxili etirazlara qarşı nemətin, sərvətin artırılması məqsədilə istifadə edilib. "Milli maraq" anlayışından xarici siyasi strateji məqsədlərin təmin olunması üçün istifadə olunub. "Transmilli maraq" məfhumu isə milli dövlətlərin fövqündə dayanan qlobal aktorların dünya miqyasındakı strateji tələbatlarının ödənilməsinin önəmini ifadə etmək dövriyyəyə buraxılıb" (Stanley, 2008: 33).

**Qloballaşmada siyasi faktorlar**

Qloballaşmanın əsas müstəvilərindən biri, xüsusən, SSRİ-nin və eyni zamanda sosialist düşərgəsinin dağılması ilə ön plana çıxan siyasi faktorlardır. Belə ki, XX əsrin sonunda siyasi muxtariyyət və milli eynilik tələblərinin yatırılmasında tamamilə uğur qazanan, daha dəqiq, nüfuzlu rejimlərin bu problemlərin üzə çıxmaması üçün fərqli düşüncənin və septaratizmin təzahürləri üzərində nəzarəti amansızlaşdırımaqla, onları sükuta məcbur edən totalitar sistemin [Ларсен, 1995:53] dağılması planetin geosiyasi sisteminin reallıqlarını və vəzifələrini, aktorlarını, tərkib hissəsini, gündəliyini və dövlətlərarası əlaqələrin xarakterini dəyişdi. Bipolyar qarşıdurmanın başa çatması beynəlxalq münasibətlərin münaqişələrə son qoyacağına, müqavilə və əməkdaşlıq zonasına çevirəcəyinə ümidləri artırdı. Lakin, münaqişələr azalmadı və üstəlik, qloballaşma onlara dövlət suverenliyinin təsdiqi, terrorizmin və separatizmin yayılması, və s. prosesləri ilə bağlı sivilizasiyalararası münaqişə və ziddiyyətləri əlavə etdi. [Юсифзаде, 2009:1.]. Nəticədə biz, münaqişə şəraitində "keçid" dövrünü xarakterizə edən və çox aydın əks edilən bir sıra ziddiyyətlərin (xüsusi halda, NATO-nun Şərqə irəliləyişi) şahidi olduq. Sərhədlərin şəffaflığı və onun tərəfindən qoyulmuş qarşılıqlı asılılıq şərti (həmahəng "Qərb" anlayışında ) hər şeydən əvvəl Qərbin, bütün başqa ölkələrdə olan hadisələrə daha aktiv reaksiya verməsilə dövlətləri mübarizəyə qaldırır. Daxili işlərə müdaxilə, hələ də kənardan güc metodları ilə (Kosovoda diqqətəlayiq böhran və NATO ölkələri ilə onun həlli cəhdi) müstəqilliyin məhdudiyyəti, zorakılıq tətbiq edilməyən başqa dövlətləri də istənilən üsullarla öz müstəqilliyini qorumağa məcbur edir.

Müsair dünyada planetin siyasi həyatında baş verən: milli dövlət institutlarının daxili səlahiyyət və beynəlxalq hüquqlarına, bu hüquq və səlahiyyətlərin rellaşması mexanizmlərinə yeni yanaşmanın tətbiq edilməsi, beynəlxalq siyasətin planlaşdırılması və həyata keçirilməsinə dövlətlərlə yanaşı, qeyri hökumət aktorlarını cəlb edilməsi, planetin siyasi inteqrasiyasının gücləndirilməsi kimi proseslər siyasi qloballaşmanın əsasını təşkil edir [Həsənov, 2009:479]

Totalitar dövrün kütləvi şüur formasının açıq, şəffaf və demokratik cəmiyyət elementləri ilə zənginləşmiş şüur forması ilə əvəz olunmasını nəzərdə tutan ictimai transformasiyanın baş verməsi cəmiyyətdə, eləcə də funksional baxımdan yeni siyasi təşkilatların yaranmasını zəruri etdi. Funksional baxımdan yeni siyasi təşkilatların yaradılması və yeni siyasi oriyentirlərin formalaşmasından yaranan siyasi məkan ikiqütblü, yaxud polisentrik olsa belə, kütlənin tələblərinə cavab verməli, onların mənafelərini ifadə etməli, inkişafa və tərəqqiyə kömək göstərməlidir. Başlıcası isə dövlət müstəqilliyinin əsası kimi milli suverenliyi, o cümlədən daxili siyasi məsələləri də qoruyub saxlamalıdır [Mehdiyev, 2005:129].

Qloballaşmanın dinamikası, beynəlxalq qarşılıqlı təsir sahəsinin genişlənməsi ictimai-iqtisadi inkişafın templərinin sürətlənməsinə, dünyanın demokratikləşdirilməsinə imkan yaradır. Bu zaman dünyada mikro hərəkatlarla seçkilərin və siyasi partiyaların nüfuzlu

təşkilatları ətrafında siyasət səhnəsini genişləndirməklə demokratiyada yeni istiqamət və siyasi təcrübələri yaratmağa başlanılır.

**Qloballaşma və milli dövlətlər**

Beynəlxalq terrorizm təhlükəsi, son illərin ərəb inqilabları və digər hadisələr yeni dünya nizamının formalaşması ilə bağlı nəzəriyyələrin daim gündəmdə qalmasına səbəb olur. Müasir beynəlxalq proseslərə nəzər saldıqda məsələnin əsasən: dünyanın güc mərkəzləri arasında yenidən bölüşdürülməsi; milli dövlətlərin gücünün və suverenliyinin azalması istiqamətində inkişaf etdiyini söyləmək olar.

Göründüyü kimi, dünyanın strateji əhəmiyyətli regionlarına nəzarət uğrunda gedən mübarizə, eyni zamanda, milli dövlətlərin zəiflədiyi bir dövrdə baş verir. Siyasi məsləhətçi Erik Şnurerin fikrincə, milli dövlət “hökumət”in təzahür formalarından sadəcə biridir. Milli dövlətin dominantlığı uzun müddət “dövlət” və “hökumət” anlayışlarının sinonim kimi başa düşülməsinə səbəb olub. Onun fikrincə, idarəetməni dövlətlə yanaşı başqa aktorlar da həyata keçirə bilir. Məsələn, ənənəvi olaraq, kilsə, mafiya “ərazisiz hökumətlər” rolunu oynayıblar. "Əl-Qaidə" müharibə məqsədilə milli dövlətə ərazi alternativi olmadan bir çox islam radikallarını daha çox və bəlkə daha effektiv təmsil etməkdədir.
Hazırda özəl sektor, virtual məkan, sosial şəbəkələr dövlət hakimiyyətinə rəqib kimi çıxış edir. Formalaşmaqda olan “virtual dövlətlər” özü ilə yeni imkanlar, həm də yeni təhlükələr gətirir. Həmin təhlükələrə qarşı onların öz metodlarından istifadə etməklə mübarizə aparmaq lazımdır. Məsələn, terrorizm şəbəkələri ilə mübarizə aparmaq üçün sadəcə olaraq hansısa ərazini bombalamaq kifayət etmir, bunun üçün eyni zamanda, informasiya məkanında geniş iş görmək lazımdır. Qeyri-dövlət aktorları ilə rəqabət apara bilməsi üçün dövlətin yeni şəraitə uyğunlaşması və yeni imkanlardan yararlanması zərurətdir. (https://www.theatlantic....2013)

Son dövrlərdə dünyada irqçiliyin, etnik, dini separatçılığın, anarxist meyllərin güclənməsi ilə əlaqədar, partikulyarlaşma və mərkəzi dövlət hakimiyyətinin zəifləməsi tendensiyası özünü göstərir. Qloballaşma şəraitində milli dövlətlərin bəzi səlahiyyətlərini fövqəlmilli təşkilatlara və mexanizmlərə, digər bir qismini isə regional orqanlara verən dövlət getdikcə idarəetmə orqanlarının fəaliyyətinin təşkil edilməsində daha az rola sahib olur. Beynəlxalq proseslər yerli orqanların formalaşmasına təsir göstərə bilir. Qloballaşma prosesində beynəlxalq arenada da regionların və yerli təşkilatların əhəmiyyəti önə çıxır və beynəlxalq aktorlarların onlarla ayrılıqda əlaqə yaratmaq tendensiyaları müşahidə olunur.

Mərkəzi hakimiyyətin dezinteqrasiyası və siyasi-konstitusiyada hüquq –qanunverici, iqtisadi və hətta hərbi sferada nəzarətin zəifləməsi (məs. Azərbaycanda keçid dövründə AXC illərində idarə etmə problemi kəskin çoxald.) **siyasi prosesin əsas fərqləndirici** xüsusiyyəti kimi ortaya çıxır. Mərkəzi hakimiyyətin zəifləməsi ilə regionlar siyasi, iqtisadi və sosial həyatın mərkəzlərinə tez çevrilir. Müasir dövrdə hakimiyyətin əlində olan planlanşdırma, qərarvermə, qaydalar yaratma və onları istiqamətləndirmək kimi idarəçilik funksiyaları bölgə təşkilatlarına, bələdiyyələrə, könüllü təşkilatlara və özəl şirkətlərə verilir. Yəni, yerli orqanlara səlahiyyətlərin verilməsi siyasəti əslində səlahiyyətlərin buradan da bazar qüvvələrinə ötürülməsi məqsədi daşıyır. Bu zaman regional liderlər ən çox onların şəxsi ambisiyalarını reallaşdırmağa və regionun maraqlarını təmin etməyə icazə vermiş strategiyaları xarici münasibətlərdə rəhbər tutaraq, siyasi və ya iqtisadi aktorlarla əlaqələrdə horizontal şəbəkələrin yaradılmasında fəal iştirak edirlər. Beynəlxalq aləmə çıxış, daxili problemlərdə konsentrasiya problemini çətinləşdirir və praktik olaraq müasir dünyanın güclü iqtisadi, texnoloji, informasiya qarşılıqlı asılılığında buna tam nəzarət etmək qeyri-mümkündür. Beynəlxalq münasibətlərdə, güclü aktorlar tərəfindən tanınma isə dövlət müstəqilliklərinin, müdafiə təklifləri və yardımlarının şərtlərindəndir.

Məhsuldar qüvvələrin müasir inkişafının əsas tendensiyası öz aralarında daha da milli sərhədlər üçün çıxan və qlobal xarakteri əldə edən sıx şəbəkə strukturlarının yaranmasından ibarətdir. Milyardlarla insanın həyat təminatı bu strukturlardan asılıdır. Onların idarə edilməsi yalnız şəxsi maraq və gəlir əsasında olanda təhlükəli olur. İqtisadiyyat da, siyasət də şəxsi effektivliyin meyarı ilə yanaşı, sosial məsuliyyətin və əxlaqın meyarlarına müqəddiməni daha da israrla tələb edir [Drezner, 2001:58].

Yeni dünya strukturunun formalaşması müxtəlif dövlətlərlə və beynəlxalq münasibətlərin başqa iştirakçıları tərəfindən nizamsız yolla, güc metodları da istisna olmadan, eləcə də də müxtəlif aktorların -dövlətlər, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları, biznes və maliyyə strukturlarının maraqlarını nəzərə alaraq böhranın idarə edilməsi yolu ilə gedə bilər. Lakin bütün iştirakçıların razılığını tapmaq, onların maraqlarının ziddiyyətini ortaq məxrəcə gətirməklə hüquqi müstəvidə ifadə etmək, davranışı bu istiqamətdə uyğunlaşdırmaq, dünya sisteminin "idarə olunmayan dağılma" münaqişələrinin artıran səbəblərinə yol verməmək olduqca çətin prosesdir. Və hal-hazırda bu proses Yaxın və Orta Şərq regionunda baş verməkdədir.

**Yaxın və Orta Şərq regionunda qloballaşma və milli dövlətlər**

Yaxın və Orta Şərq regionu da dünyanın bütün digər bölgələri kimi, qloballaşma proseslərinə bağlıdır. Baş verən hadisələr zəminində Yaxın Şərq 2018-ci ildə dünyanın ən qaynar nöqtəsi olaraq qalmaqdadır. "Ərəb baharı", Suriyada vətəndaş müharibəsi və İŞİD-in fəaliyyəti dünyanın bu hissəsində oyun qaydalarını, demək olar, tamamilə dəyişib və qarşıda hamının buna hələ ancaq uyğunlaşması durur.

İnqilabların baş verdiyi ölkələrdə yaradılan yeni hökumətlərin daxildə dini ekstremizm və etnik separatçılıqla üz-üzə qalması, mərkəzi hakimiyyətin zəifliyi həmin dövlətlərin xarici təsirlərdən də müdafiəsini zəiflədir. Əgər adamlar hər şeydən öncə öz ilkin eyniyyətlərinə: özlərini birinci növbədə şiə, sünni, kürd, fars, türk kimi üz tuturlarsa və sonra bu və ya digər ölkənin vətəndaşı olduğunu qavrayırlarsa, bu milli dövləti zəiflədir. Bu şəkildə zidd düşüncəli ünsürlərin fəallaşması (məsələn, Türkiyədə Gezi parkı olayları, FETO terror təşkilatının dövlət idarəçiliyinə sızması və s.), mərkəzi hakimiyyətin ölkəyə nəzarətini zəiflədən hadisələrin ardıcıl və sistemli şəkildə baş verməsi radikal dini qrupların, anarxistlərin, solçuların və s. "eyni mərkəz"dən idarə olunması təsəvvürünü gücləndirir.

"İdarə olunan xaos" şəraitində analitiklər gələcəkdə milli dövlətlərin suverenliklərini itirərək beynəlxalq təşkilatlar və ya transmilli şirkətlərin başında dayanacağı "qlobal hökumətin", yaxud "dünya hökumətinin" bir hissəsi olacağı fikrini irəli sürürlər. ABŞ siyasi analitiki Robert Kaplan "Anarxiya və hegemonluq" məqaləsində beynəlxalq münasibətlərdə demokratiya prinsiplərinin özünü doğrultmadığını bildirir, dövlətlər arasında qeyri-bərabərlik və iyerarxiyalılığın vacibliyini önə sürür, ABŞ-ın dünya siyasətində hegemonluq iddialarına haqq qazandırır (https://oldgoro.livejournal.....).

Fikrimizcə, R.Kaplan yanlış olaraq hegemonluq siyasətinin dünyada sabitliyi təmin edəcəyini düşünür və son dövr baş verən hadisələr bunu təsdiqləyir. Belə qənaətə gəlmək olar ki, yeni dünya düzəni, ilk növbədə, "çoxqütblü dünyaya" qarşı yönəlib. Bu səbəbdən də, dünya siyasi səhnəsində iddialı görünən dövlətlər Qərbdə narahatlıqla qarşılanır. Dünyanın müxtəlif regionlarında maraqlarını təmin etməyə çalışan ABŞ-ın rəhbərlik etdiyi Qərb bloku bu məqsədlərində onlara mane olan dövlətlərdə mərkəzi hakimiyyəti zəiflədən etnik, dini ziddiyyətlərin artmasında və eyni region daxilindəki dövlətlərin bir-birinə düşmən münasibətində maraqlıdır. Bu cür siyasət Qərbdə "konstruktiv xaos" adlandırılır və ABŞ-ın müttəfiqləri ilə birlikdə Yaxın Şərq və digər regionlarda məhz bu siyasəti həyata keçirməkdədir.

**Müasir siyasi proseslərdə qloballaşma və dünya inkişaf nəzəriyyələri**

Qloballaşma şəraitində dünya inkişaf nəzəriyyəsi qruplarını daha ətraflı nəzərdən keçirək.

Müasir siyasi proseslərdə qloballaşma: Beynəlxalq əlaqələrin qlobal islahatları; Dünya İnkişafı Strategiyası; Ali dövlət qurumlarının yaradılması üçün planlarla ələlaqələndirilir.

Beynəlxalq münasibətlərdə **qlobal islahatlar layihəsində** inkişaf etməkdə olan ölkələrdə problemin araşdırılmasının ön plana keçməsi kimi xüsusiyyət əyani şəkildə görünməkdədir. Təhlil edilən nəzəriyyələrin bu səciyyəvi xüsusiyyəti inkişaf etməkdə olan əksər ölkələrin dünya iqtisadiyyatına və dünya siyasi sisteminə inteqrasiyasının yol və üsullarının nəzəri axtarışını təşkil edən siyasi təyinatla şərtlənmişdir.

Bu islahat layihələri inkişaf etməkdə olan ölkələrin xaricdən maliyyələşməsini xeyli gücləndirəcək "resursların kütləvi ötürülməsi"ni nəzərdə tutur. Nəticədə, bu plan Qərb maliyyə resurslarının və OPEC ölkələrinin valyuta ehtiyatlarının, Qərb texnologiyalarının və inkişaf etməkdə olan ölkələrin təbii sərvətlərinin səmərəli vəhdətinə kömək etməlidir. Bu məqsədə çatmaq üçün dünya birliyində beynəlxalq valyuta sistemində islahatlar, ümumdünya "avtomatlaşdırılmış təzminatlar"ın tətbiq edilməsi, beynəlxalq ticarətə "qlobal vergi"nin qoyulması, "ümumdünya inkişaf fondu"nun yaradılması və s. kimi dəyişikliklər aparmaq tövsiyə olunub. Həmin islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə yeni beynəlmiləl institutlar kömək göstərə bilər. Məsələn, Cənub Komissiyasının "Qlobal Cənub problemləri" adlı hesabatında inkişaf etməkdə olan ölkələrdə "Üçüncü dünya Katibliyinin yaradılması" təklif olunurdu. Burada Cənub dövlətlərini birləşdirən qlobal bir təşkilatı-Cənub Katibliyini təsis etmək Cənubi Mərkəzin əsas vəzifələrinə aid edilirdi. Bu qurum inkişaf etməkdə olan ölkələr arasında fəaliyyətin koordinasiyasını gerçəkləşdirə və onların "qlobal danışıqlar" prosesində iştirakının texniki, analitik, statistik və digər aspektlərini təmin edə bilərdi.

"Cənub" ölkələri arasında kooperasiyanı maliyyələşdirmək üçün "Üçüncü dünya Bankı" yaratmaq, göstərilən regionda enerji istehsalını artırmaq məqsədilə yeni enerji agentliyi də təşkil etmək tövsiyə olunmuşdur və s.( Хроника ООН, 2014)

Bir çox tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi, ümumbəşəri çətinlikləri dəf etmək üçün qlobal islahatlarla yanaşı, ayrı-ayrı dövlətlər və cəmiyyətlər səviyyəsində də müvafiq islahatlar zəruridir.

**"Ümumdünya inkişaf strategiyası**"nın müəllifləri planetar miqyaslı proseslərdə onların sabitləşməsi məqsədilə başlıca dəyişikliklər prinsipini fərqləndirməyə cəhd göstərirlər. İlk olaraq, bəşəriyyətin "üzvi artım" ideyasına əsaslanan yaşam strategiyası yaradılır.

Strategiyanın müəllifləri M.Mesaroviç və E.Pestel hazırkı çətinliklərin başlıca səbəbi kimidünyanın hər bir hissəsinin başqa hissələrlə koordinasiya olmadan, bunun səbəb ola biləcəyi nəticələr nəzərə alınmadan inkişaf etməsindən yaranan "qeyri-differensial", "taraz-laşdırılmamış artım"ı göstərirdilər. Bu nəzəriyyənin yaradıcıları hesab edirlər ki, bəşəriyyətin bugünkü vəziyyətinin əsas xüsusiyyəti "böhran sindromu"dur. O, "üzvi inkişaf" vəziyyətində olan beynəlxalq sistemə keçid üçün həlledici stimul olmalıdır. Belə bir vəziyyətdə sistem vahid orqanizm kimi inkişaf edə bilər. Burada onun hər bir hissəsi müstəsna rol oynayır və həmin rola uyğun gələn ümumi rifahın müəyyən payından istifadə edir, həmçinin həmin hissənin bütöv maraqlar çərçivəsində bundan sonrakı inkişafını təmin edir (Месарович и Пестел: 1974). Burada müxtəlif layihələrdə ön plana müxtəlif strateji hədəflər qoyulmuşdur. Məsələn, çağdaş beynəlxalq münasibətlər sisteminin yenidən formalaşması, əsas tələbatların təmin edilməsi, ətraf mühitin qorunması və s. Siyasi-qlobalist layihələrin birində nəzərdə tutulurdu ki, beynəlxalq inkişafın məqsədi "sinergiya" anlayışı ilə səciyyələnə biləcək "dünyanın yeganə ən yaxşı təşkili"nə nail olmaqdan ibarətdir.

**“**Sinergiya**”** yunan sözü olub, “əməkdaşlıq” deməkdir**.** (Глоссарий специальных терминов и понятий**)**. Siyasi qlobalistika nəzəriyyəçiləri “sinergiya” sözü altında “bir çox orqanların razılaşdırılmış fəaliyyətini və ümumi məqsədə çatmaq üçün qarşılıqlı səyləri” başa düşürlər. Beynəlxalq inkişafın təklif olunan planı ötən əsrin axırlarında siyasi qlobalistikada geniş yayılan “qarşılıqlı asılılıq” nəzəriyyəsinə əvəz tapmaq cəhdi idi.

“**Qarşılıqlı asılılıq**” nəzəriyyəsi əksər dövlətlərin ümumi maraqlarının mövcudluğunun tanınmasına əsaslanır. Həmin nəzəriyyənin tərəfdarlarının fikrincə, maraqların bu ümumiliyi aşağıdakı amillərlə şərtlənir: qlobal problemlər yaranır və kəskinləşir; elmi-texniki inqilab dünyanın sənaye cəhətdən daha yaxşı inkişaf etmiş dövlətləri tərəfindən yaradılan və nəzarət edilən ən müasir texnika növlərinin bir çox ölkələr üçün həyati əhəmiyyət kəsb etdiyi birmərhələyə keçir; müasir dünyada qarşılıqlı əlaqələr artır və s.

“Qarşılıqlı asılılıq”da liberal institusionalistlər, dövlətlər arasındakı əməkdaşlığa mane olan ən böyük maneəni aldadılma qorxusu olduğunu təsdiqləyirlər. Bu problemi həll etmək üçün tərəflər ümumi maraqlar daxilində aldatma ehtimalını minimuma endirə biləcək beynəlxalq təşkilatların köməyinə üstünlük verirlər. Beynəlxalq təşkilatlar həmçinin müqavilənin həyata keçirilməsinin monitorinqinə qənaət etmək imkanı da verir.

Yəni, dövlətlər və beynəlxalq təşkilatlarla yanaşı, **transmilli korporasiyalar** dünya proseslərinin və hadisələrinin gedişinə və inkişafına əhəmiyyətli təsir göstərən amillərə çevrilmişlər. Müasir dünyada transmilli korporasiyalar iqtisadi dəyişikliklərin və maliyyə əməliyyatlarının əsas inteqratorlarıdır. 1980-ci illərin sonları - 1990-cı illərin əvvəllərində. R. Keohan və J. Nay ümumilikdə beynəlxalq münasibətlər üzrə transmilli əlaqələrin intensivləşməsi təsirlərini araşdıraraq dövlətlərarası münasibətlərə təsir göstərən beynəlxalq qarşılıqlı əlaqələrin beş amilini qeyd edirlər: adi vətəndaşlar səviyyəsində fikir mübadiləsini genişləndirilməsi; siyasi plüralizmin inkişafı (koordinator kimi çıxış edən transmilli strukturlara fərdi milli qrupların daxil edilməsi); dövlətlərin, xüsusilə nəqliyyat və maliyyə sahələrində asılılıq və qarşılıqlı asılılığın formalaşması; başqalarına münasibətdə bəzi dövlətlərin istifadəsi üçün yeni təsir vasitələrinin yaradılması; bəzən fərdi dövlət maraqlarına zidd siyasət yürüdən beynəlxalq münasibətləin müstəqil subyektlərinin yaranması. (Keohane - Nye,1971:337)

Realistlərdən fərqli olaraq Keohan və Nay baş verən hadisələrin təsviri və izahında daha realist mövqedən şıxış edərək mürəkkəb qarşılıqlı asılılığın ideal növnü inkişaf etdirirlər. Bu ideal tipin əsas xüsusiyyətləri:

-müxtəlif cəmiyyətlərön öz aralarında bir-birinə müxtəlif kanallar vasitəsilə dövlətlərarası, hökumətlərarası və transmilli birləşmə bacarığı;

-dövlətlərarası əməkdaşlıq sahələrində iyerarxiyanın olmaması;

-hər hansı bir regionda dövlətlərin mürəkkəb qarşılıqlı şəraitdə silahlı qüvvələrdən birinin eyni regionda başqa bir dövlətə qarşı istifadə imkanları istisana olunmamasıdır. (Keohane -Nye,1971:344)

Siyasi qlobalistikanın əksər nümayəndələri güman edirlər ki, qarşılıqlı asılılıq kəskin planetar problemlərin həlli zamanı dövlətlərin qarşısına müəyyən imkanlar yaratsa da, onların üzərinə məlum öhdəliklər də qoyur. Onların fikrincə, qarşılqlı asılılıq çox zaman dövlətlər arasında “qeyri-simmetrik münasibətlər” yaradır, başqa sözlə, hansısa ölkələrin milli maraqlarına müəyyən ziyan vurulur. (Keohane- Nye:1971; Теория Взаимозависимости). Yəni, mürəkkəb qarşılıqlı əlaqə vacib bir siyasi prosesə təkan versə də dövlətlərin müəyyən sahələrdə məqsədləri dövlətlərarası dövlət siyasətindən fərqlənə bilir.

**Ali dövlət qurumlarının yaradılması**

Beynəlxalq problemlərin həlli yollarının axtarışında milli institutların fövqündə duran institutların yaradılması planına əsasən, hakimiyyət hesab edir ki, qlobal problemləri həll etmək məqsədilə hakimiyyətin suveren dövlətlərin hökumətlərindən həm regional, həm də qlobal miqyaslı milli institutların fövqündə olan institut və təşkilatlara verilməsi zəruridir. Dünya birliyində hakimiyyət institutlarının qlobal sisteminin formalaşmasına münasibətdə bir neçə nöqteyi-nəzər mövcuddur.

1. Bəziləri beynəlxalq inkişaf perspektivlərini mühüm ümumbəşəri məsələlərə qətiyyətli təsir göstərmək və son nəticədə çağdaş sivilizasiyanın radikal yenidən qurulmasına kömək etmək iqtidarında olan **beynəlxalq təşkilatlarla** əlaqələndirir. Bu mövqenin əsasını hazırda fəaliyyət göstərən beynəlxalq təşkilatların modernləşməsinin zəruriliyinin tanınması və onlara uyğun yeni müəssisələrin yaradılması təşkil edir.

2. Digər yanaşma tərəfdarları milli institutların fövqündə olan institutların yenidən qurulmasında daha radikal layihələr irəli sürür və bu təşkilatlara gerçək **hakimiyyət ayrılmasını**, habelə onlara dünya siyasətinə əsaslı təsir göstərmək imkanı yaradılmasını tövsiyə edirlər. Y.Tinbergen yazır ki, "Beynəlxalq problemlərin səviyyəsi sayılan ən yüksək səviyyədə düşünülmüş dəyişikliklərin əsas hərəkətverici qüvvəsi beynəlxalq institutlar olmalıdır... Əgər bütün institutlara əhəmiyyətli hakimiyyət verilərsə, onda onlar öz sərəncamlarında olan vəsaitləri sistemə gətirərək, siyasəti formalaşdırırlar". (Модель Ян Тинбергена)

3.İnsan cəmiyyətində hakimiyyətin *böyük mərkəzləşdirilməsinin tərəfdarları* **ümumdünya parlamentinin və hökumətinin yaradılmasına** dəstək verirlər. Onlar hesab edirlər ki, qlobal problemlərin kəskinləşməsi, həmçinin milli dövlətlərin və milli hökumətlərin onların öhdəsindən gələ bilməməsi ümumdünya hökumətinin yaradılması haqqında məsələni gündəmə gətirir. Hər şeydən öncə, onlar "dünya hökuməti" və "dünya dövləti" anlayışlarını dəqiq şəkildə bir-birinə qarşı qoyur və ayırırlar. Onların fikrincə, birincisi "gözlənilən gerçəklik", ikincisi isə "utopiya"dır. Dünya birliyinin idarə olunmasında institusional mexanizmlərin qlobal sisteminin formalaşmasına münasibətdə vahid yanaşma yoxdur. Yəni, qloballaşmanın vahid forması mövcud deyil.

**Siyasi proseslər və antiqlobalist hərəkatlar**

Son illər antiqlobalistlər hərəkatı bütün beynəlxalq birliyin diqqətini özünə cəlb etmiş, dünya siyasətinin başlıca amilinə çevrilmişdir.

Hazırda vahid, ümumi mərkəzdən idarə olunan və eyni məqsəd güdən ümumdünya antiqlobalist hərəkatı mövcud deyil. Beynəlxalq aləmdə qloballaşma prosesinin neqativ təmayüllərinə və nəticələrinə qarşı yaradılmış bir sıra müstəqil və sərbəst ictimai təşkilatlar fəaliyyət göstərir. Bu təşkilatlardan daha məşhur və fəal olan bəzilərini ROSBALT İnformasiya Agentliyinin dərc etdirdiyi məlumatlar əsasında daha ətraflı nəzərdən keçirək. İlk növbədə qloballaşmanın ideologiyası kimi qiymətləndirilən *neoliberalizmə qarşı mübarizə* təşkilatlarının mövqeyini qısaca şərh edək.

**1. ATTAC** kimi tanınan "Maliyyə bazarları və onların institutlarına demokratik nəzarət uğrunda beynəlxalq hərəkat"dır (Platform of the international movement ATTAC,1998). Təşkilatın əsas şüarı "neoliberalizmə qarşı konvergensiya"dır. Hərəkat 1998-ci il dekabrın 11-12-də Fransanın ATTAC Assosiasiyası tərəfindən təşkil edilən beynəlxalq görüş zamanı yaradılmışdır. Tədbirdə Afrika, Cənubi Amerika, Asiya və Avropanın təxminən 10 ölkəsinin nümayəndələri iştirak etmişlər. ATTAC müxtəlif ölkələrdə və bütövlükdə bütün dünyada neoliberalizmə qarşı mübarizədə onun təşkilatlarını birləşdirmək məqsədi güdən müxtəlif

siyasi aksiyalar təşkil edir. Bundan başqa, ATTAC məlumat şəbəkəsinin yaradılmasına çalışır ki, bu da birləşmə işinə xidmət etməlidir. İnformasiya şəbəkəsinin genişləndirilməsi üçün təşkilatın yanında elmi şura yaradılmışdır. Şuranın başlıca vəzifəsi neoliberal strukturların, təşkilatların və s. fəaliyyəti haqqında və neoliberalizmin əleyhdarlarının baxış və fəaliyyətlərinin işıqlandırılması ilə yanaşı, onun nəticələri haqqında məlumatların toplanması və yayılmasından ibarətdir. Fransada bu hərəkatın yaradılmasından sonra bir çox ölkələrdə həmçinin neoliberalizmə qarşı bu cür təşkilatların yaradılmasına başlanıldı. ATTAC-da (təşkilatın üzvlərinin bildirdiklərinə görə) iyerarxiya və heç bir coğrafi mərkəz yoxdur, bu qurum yalnız ümumi ideya ətrafında birləşən müstəqil təşkilatlar birliyidir.

**2. 50 Years is Enough**. Neoliberalizm əleyhinə daha bir hərəkat “**50 il yetər**!” (50 Years is Enough- Third World Traveler) adlı İqtisadi ədalət uğrunda qlobal şəbəkədir. Hərəkat 1994-cü ildə ABŞ-da yaradılmışdır. Hazırda təşkilata Dünya Bankında (DB) və Beynəlxalq Valyuta Fondunda (BVF) tam islahatlar aparılması uğrunda çıxış edən Amerikanın təxminən 200 ictimai təşkilatı daxildir və o, dünyanın 65 ölkəsinin 185 təşkilatı ilə əməkdaşlıq edir. Bu hərəkatın təmsilçiləri DB və BVF-i antidemokratiklikdə və korrupsiyaya qurşanmaqda ittiham edir, həmçinin bu institutların fəaliyyətinin dünyada təbəqələşmənin güclənməsinə və ekoloji vəziyyətin pisləşməsinə apardığını iddia edirlər.

Hərəkat DB və BVF-in rəhbərliyinə qarşı bir sıra tələblər irəli sürmüşdür. Onlardan aşağıdakıları göstərmək olar:

- bəyan olunan bütün borcların heç bir tələb irəli sürülmədən 100% silinməsi;
- struktur tənzimləmə və makro iqtisadi islahatların (əsasən, kreditləşmə sahəsində) dayandırılması və onların nəticələrinin əvəzinin ödənilməsi;
- bu təşkilatların proqramları nəticəsində ziyan vurulan ölkə hökumətlərinə sosial və iqtisadi dağıntının əvəzinin ödənilməsi;
- özəl sektora yardım göstərilməsinin dayandırılması (xüsusilə korporativ qloballaşma məqsədi güdən proqram və təşkilatlara).

*Qloballaşma problemləri həll etmək üçün yaradılmış təşkilatlar*

**1.Oxfam International (OI)**. Neoliberalizmi tənqid edən beynəlxalq təşkilatlar arasında “beynəlxalq yardım qrupları” adlananları, məsələn, Oxfam International və ya beynəlxalq “Dünya baxışı”nı (World Vision) fərqləndirmək olar. Bu qruplar qloballaşma ilə qarşıdurma yaratmaq üçün deyil, onu müşayiət edən problemləri həll etmək üçün yaradılmışlar.

Beynəlxalq Oxfam qrupu – bütün dünyada yoxsulluq və ədalətsizliklə mübarizə məqsədilə birləşmiş muxtar qeyri-hökumət təşkilatlarının konfederasiyasıdır. ABŞ, Belçika, Kanada, Avstraliya, Böyük Britaniya, Honkonq, İspaniya, İrlandiya və Niderland onun üzvüdür.

Yeni Zelandiya, Kvebek və Almaniya Oxfam-ı hazırda müşahidəçi statusuna malikdir. 01 koordinasiya mərkəzi Oksfordda yerləşir. Bundan başqa, Vaşinqtonda DB, BVF və BMT-nin fəaliyyətinə nəzarət edən 01 Müdafiə ofisi mövcuddur. Oxfamın hər bir təşkilatı müstəqildir və yalnız mərkəzi ofis onların fəaliyyətini koordinasiya edir. Bu təşkilat yoxsulluqla və insan hüquqlarının pozulması ilə mübarizəyə yönəldilmiş müxtəlif aksiyalar keçirir, həmçinin maarifçi-təhsil fəaliyyəti ilə məşğul olur.

**2.World Vision.** “Dünya baxışı” – bütün insanların, xüsusilə uşaqların rifahının yüksəldilməsi uğrunda çıxış edən beynəlxalq xristian təşkilatıdır. Təşkilatın əsası 1950-ci ildə Asiyada yetim uşaqlara qayğı göstərmək məqsədilə qoyulmuşdur (World Vision International | For Children). Sonralar “Dünya baxışı” öz fəaliyyət və maraq dairəsini genişləndirsə də, onun diqqət mərkəzində əvvəlki kimi yenə də “cəmiyyətin sosial sağlamlığının ən yaxşı indikatoru” olan uşaqlardır. Planetin altı qitəsində işləyən “Dünya baxışı” dünyada ən iri xristian yardım təşkilatlarından biridir. Hazırda “Dünya baxışı” öz idarə heyətləri və ya məsləhət şuraları olan

qarşılıqlı asılı milli obyektlərin birliyi kimi fəaliyyət göstərir. Əsas koordinasiya orqanı qismində beynəlxalq direktorlar idarə heyətidir. Lakin qərarlar yerli idarə heyətləri səviyyəsində qəbul edilir, çünki milli direktorlar qabaqcadan bəyənilmiş büdcələr hüdudunda bütün layihələrin 90%-dən çoxunu tövsiyə edirlər. Biznes, kilsə və sosial xidmət nümayəndələri milli idarə heyətlərinə daxildir və milli səviyyədə idarəçiliyə görə məsuliyyət daşıyırlar.

**Anti-qlobalist hərəkatlar Yaxın və Orta Şərq regionu ekspertlərinin qiymətləndirilməsində**

Son illərdə dünya yeni bir mərhələyə qədəm qoyub: getdikcə daha çox nizamsız, etibarsız və hətta təhlükəli hala gəlməkdədir. Qətiyyətlə demək olar ki, bütün davamsızlıq, qeyri-sabitlik və qismən geriləmə ilə Yaxın Şərq dünya siyasətinin əsas bölgələrindən biri kimi, dünyanın aparıcı qüvvələrinin rəqabət zonası olaraq qalmaqdadır. Soyuq müharibənin sona çatdıqdan sonra bu geosiyasi məkan maraqların kəsişməsi zonası deyil, dünya hakimiyyət mərkəzlərinin xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Region müxtəlif siyasi rejimler, dini baxışlar, inkişaf səviyyəsi və digər amillərlə xarakterizə olunan həddindən artıq qeyri yekcinsliyilə (hetorogenliyilə) fərqlənir. Bu isə qloballaşmanın bu əraziyə təsirinin qiymətləndirilməsini olduqca mürəkkəbləşdirir.

Qeyd etmək lazımdır ki, əsasən ərəblər və müsəlmanlar yaşadığı Yaxın və Orta Şərqin əksər ölkələrində qloballaşma mənfi bir fenomen olaraq tez-tez müstəqil dövlətlərin daxili işlərinə müdaxilə və yabancı ideyalar tətbiqilə əlaqəli tək yönlü proses olaraq qəbul edilir. Bu ölkələrin əksəriyyəti praktik olaraq qloballaşma prosesinə cəlb edilməyə müqavimət göstərirlər. Məsələ ilə əlaqəli ekspert S. Filatov yazır ki, müsəlman şüuru və dindarlığı qloballaşmanın müasir modelinə zidd və müqavimət göstərən bir mahiyyətə malikdir [Филатов, 2004:18]. Təbii ki, belə halda onlar qlobalaşmada mənfi təzahürlərlə əlaqəli amillərin spektrini əsaslandırmağa çalışırlar.

Məsələn, Qlobal inteqrasiya prosesləri üzrə ərəb eksperti M.F. Saltaha görə “Hazırda Yaxın Şərq üçün siyasi nöqteyi nəzərdən “qloballaşma” kimi bir anlayış yoxdur” və bu termin altında məcburi amerikanlaşma və demokratikləşmə gizlədilir [سلطح،العولمة الله ف ضل مكتبة،السياسية،الكويت 1999.ص.:107 ]. Misirli tədqiqatçı Abd Ər-Rəşid Abd El-Hafiz isə “Qloballaşmanın Ərəb ölkələrinə mənfi təsirləri və onlara qarşı mübarizə yolları” kitabında qloballaşma prosesinin siyasi komponentinin əsas mənfi faktorlarına: milli dövlətin zəifləməsini, bütün dünya üçün vahid siyasi sistem tətbiq etmək və müəyyən ölkələrdə siyasi sistemin dəyişdirilməsi cəhdlərini aid edir. [ل لعولمة ال سل بية الآث ار .لر شيدا عبد ال حاف ظ، عبد على الوطن العربي وسبل مواجهتها. القاهرة، 2005 ،ص.: 52]. Liberal ərəb ziyalıları da qloballaşmanı ərəb və müsəlman dünyası kimliyinə birbaşa təhdid, ərəblərin mədəni və insan şəxsiyyətini məhv edən “barbar” bir proses kimi təsvir edirlər [Najjar,2005: 93].

Əslində günümüzdə Qərbin üstün ideoloji baxışları ilə Qərbli olmayan xalqların Qərb dəyərlərini qəbul etməlidir inamı, faktiki olaraq, əxlaq dəyərlərinə ziddir. Belə qərb mədəniyyətinin alınmasına gedilən islahatların nəticəsi, dövlətin daxilində ziddiyyətlər yaranmasına gətirir. Belə ki, hal-hazırda danılmaz faktdır ki, Amerika mədəniyyəti və Amerika dəyərləri qloballaşma adı altında dünyaya qəbul etdirilir. Bu mədəniyyət sələmçilik üzərində qurulmuş kapitalist mədəniyyətidir, orada homoseksualizm kimi fəsad açıq və normal müstəvidə təbliğ olunur, onları bir zümrə kimi formalaşdırırlar. Fikrimizcə, bu mədəniyyətin yayılması tarixən təşəkkül tapmış normalar və adət-ənənələrə zərbə endirir, onların gizli aşınmasına səbəb olur. İslam isə qloballaşmanın təklif etdiyi bu kimi dəyərlərlə üst-üstə düşmür, özünəxas müəyyən bir həyat tərzini tələb edir və müsəlman dünyasına xristian dəyərlərinin və qlobal kütləvi Qərb mədəniyyətinin bu şəkildə təcavüzkar nüfuzetməsinə müqavimət göstərir.

Qloballaşmaya qarşı 2001-ci ilin noyabrında Beyrutda keçrilən ümumi ərəb məclisinin məqsədi "terrora qarşı müharibə"nin son inkişafları və gedişini izləmək, qloballaşmanın əsas məsələləri üzrə müzakirələr, alternativ inkişaf yollarının inkişafı üçün təcrübə mübadiləsi və şəraitin yaradılması kimi maddələrə nail olmaq idi [http://www.islamweb.net/media/print.php?id=4718].

2004-cü ildə Livanda keçirilən konfransının sonunda isə Yaxın Şərq antiglobalistlərinin əsas mövqelərinin ifadə olunduğu "Beyrut Bəyannaməsi" qəbul edildi. Bəyənnamədə İraq və Fələstin xalqlarının işğala qarşı mübarizə haqqının dəstəklənməsi; İsrail tərəfindən Fələstinin işğalının sona çatması tələbi; İraqdan koalisiya qüvvələrinin tam çəkilməsi; fələstinlilərin siyasi, sosial, iqtisadi və vətəndaş hüquqlarına tam hörmət; sionizmin irqçi və müstəmləkəçi ideologiya kimi mühakiməsi; İsrail separatçılıq baryerinin sökülməsi; bütün İraq və Fələstinli siyasi məhbusların azad edilməsi kimi vəzifələrin yerinə yetirlməsi nəzərdə tutulurdu.[ /com.almustaqbal.www://http -]. Təəssüf ki, bu vəzifələrin çoxu kağız üçərində qalmaqda davam edir.

Misir (AGEG) [http:// www. Ageg. net.] və Suriya Əl- Badil [http://www.albadil. net.] qrupuları və digər təşkilatlar da öz fəaliyyətlərini ABŞ və İsraildən gələn, dünya hegemonyasına yönəldilmiş ideologiya ilə qəbul edilən sionizmə qarşı mübarizə əsasında qurur. Milliyyətçilər və islamçılar qloballaşmanı sionistlərin bir aləti kimi təsvir edirlər. Onların qənaətinə görə qloballaşmanın məqsədi ərəb dünyasını iqtisadi, siyasi və mədəni cəhətdən kölə halına salmaq və onu Qərbə tabe etməkdir [http://www.daawa. net/display/arabic].

Məsələnin bu şəkildə qoyuluşunun nə dərəcədə əsaslı olduğunu təxmin etmək üçün ötən minilliyin sonlarına ekskurs edək. Hələ imperializm 1980-ci illərin əvvəlində "**böyük İsrail imperiyası çətiri**" altında Yaxın Şərqin rekonstruksiyası planını işə salıb və ilk addım 1980-ci il sentyabrın 22-də başlanmış və səkkiz il sürmüş İran-İraq müharibəsi idi. İmperiyaçı güclər bu müharibənin gedişində iki müsəlman dövlətinə "**həm bizimki, həm də sizinki**" prinsipini tətbiq edərək hərbi, iqtisadi, sosial fəlakətə yol açdılar. Fars körfəzindəki müharibələr və 2003-cü ildə İraqın işğalı bu strategiyanı davamı idi.

Oded İnonun 1982-ci ildə qələmə aldığı və bütün müsəlman dövlətlərinin, birinci növbədə bölgənin ərəb ölkələrinin süqutunu nəzərdə tutan "**İnon planı**" məhz bu dövrdə qüvvəyə minib. Plan bu gün Netanyahu hökumətində (Likud partiyası fraksiyasında) təmsil olunan və İsrailin hərbi və intellektual elitası arasında olan nüfuzlu Sionist hərəkatın təməl daşıdır.

Planın məqsədi İsrail ərazisini genişləndirmək məqsədi ilə qonşu ərəb dövlətlərini zəiflətmək və nəticədə parçalamaqdır. Sionist layihəsi yəhudilərin köçürülməsi üçün hərəkatin dəstəklənməsinə yönəldilmişdir. Və böyük ehtimalla daha geniş anlamda, bu, fələstinlilərin Fələstindən çıxarılmasını, nəticədə isə, Şərq sahilinin və Qəzza Zolağının İsrail ərazisinə daxil edilməsinə səbəb olar.

"Böyük İsrail" planı tərkibinə Liviya, İordaniya, Suriya, Sinay yarımadasının ərazisi, və İraq və Səudiyyə Ərəbistanı ərazisinin bir hissəsi daxil olan bir sıra səlahiyyətli dövlətləri yaradılmasını nəzərdə tutur. Ekspertlər bu planı Yaxın Şərqdə ingilis müstəmləkə siyasətinin davamı və İsrail dövlətinin regional üstünlüyünə nail olması üçün strateji planı kimi dəyərləndirirlər. Yəni, plan, İsrailin qonşu ərəb dövlətlərinin balkanlaşması yolu ilə öz geosiyasi mühitini "yenidən" təşkil etməsi, onları daha kiçik, daha zəif dövlətlərə çevirməsin xidmət edən bir strategiyadır.

İnon planı yalnız İraqın kürd-sünni-şiə oxu üzrə bölünməsinə (ABŞ-ın keçmiş vitse-prezidenti Baydenin planını da əhatə edən) deyil, Liviya, Misir və Suriyanı da nəzərdə tutur. Bundan əlavə, eyni strategiya İran, Türkiyə, Somali və Pakistanın parçalanmasını da ehtiva edir. İnon planının digər bir elementi, plana görə, Misirdən başlayacaq və sonra Sudan, Liviyaya və bütün bölgəyə yayılmış Afrikanın şimalında dövlətlərin parçalanmasıdır ". (http://poistine.org/velikiy-izrail-plan...)

Bu plan faktiki olaraq "Böyük İsrail"in yaradılması kimi görünür və bu bölgəyə münasibətdə Amerika xarici siyasətinin əsas oxunun biçimlənməsini nəzərdə tutur. İsrailin dəstəyi ilə yaradılacaq Kürdüstan bu planın çıxış nöqtəsi, müəyyən mənada təkcə İraqa deyil, həm də Türkiyə, Suriya və İrana təsir etməli açar olmalıdır.( https://sputnik.az/russia)

Göründüyü kimi milliyyətçilər və islamçıların təşvişi və qloballaşmanı sionistlərin bir aləti kimi təsvir etməsi əsassız deyil. Həmas təşkilatının nümayəndələrindən biri xəbərdarlıq edir ki, əgər ərəb dövlətləri İsrailin mövcud olmasına icazə verərsə, o zaman İsrail "Cənub-Şərqi Asiyada Yaponiya kimi, regionda hakimiyyəti ələ keçirəcək və bütün ərəblər yəhudilər üçün işləyəcək". [Страус, 2005].

Və deyəsən, İnon planı artıq İraq və Suriyada uğurla nəticələnib və indi bu dövlətlərin unitar quruluşunu saxlamağımız çətin olacaq. Bu plan Sudan, Yəmən və Liviyada qalib gəlmək üzrədir. Yaxın Şərqin domino effekti ilə üzləşəcəyi halda parçalanmağa məruz qalan hər bir ölkə növbəti dövlətdə yeni cəbhənin açılmasına təkan verəcək.

Bu günlərdə BMT-nin Təhlükəsizlik Şurasında Suriyadakı mövcud vəziyyətin müzakirəsi zamanı BMT-nin Baş katibi Antoniu Quterreş acı təəssüf hissilə son vaxtlar Yer kürəsində gərginliyin kəskin artmasından narahatlığını dilə gətirərəkbu gün dünyada "soyuq müharibə" yenidən qayıtdığını söyləyib. BMT rəhbərinə görə gərginliyin artmasının qarşısını almaq üçün nəzarət mexanizminin olmaması planetdə vəziyyəti xüsusilə çətinləşdirir. Onun fikrincə əvvəllər də "soyuq müharibə" zamanı ABŞ və Sovet İttifaqı arasında ciddi bir qarşıdurma var idi. Lakin indi Vaşinqton və Moskva əvvəllər olduğu kimi hər kəsə nəzarət edə bilmir, vəziyyət belə davam etsə, dünyanı böyük təhlükələr gözləyə bilər. Bir çox ölkələr bölgədə çox fəaldır. Türkiyə, İran, Səudiyyə Ərəbistanı və başqaları güclü təsir imkanlarına malikdir (Təbii ki, bu Qərbi narahat edən amillərdəndir-İ.G.). Onun sözlərinə görə "Yaxın Şərqdə xaos dünyada sülh və təhlükəsizliyi təhdid edəcək miqyasdadır" ( https://sputnik.az/russia)

Əslində İslam Qərbin qlobal hegemonyasının qurulmasında yeganə manelərdən idi. Şimal Afrika və Asiyadakı ərəb dövlətlərini əhatə edən kütləvi iğtişaşlar... Qəddafinin tərəfdarları və müxalifləri arasında silahlı qarşıdurmalar...və Suriya. İlk baxışdan başlayan iğtişaş və etirazların görsənən səbəbləri hər yerdə fərqlidir, pərdəarxası tərəflər isə maraq-larına xidmətdə sadiqdirlər. Bununla da qloballaşma və Yaxın Şərqdəki təzahürlər çox yönlü və qeyri-müəyyəndir. Bütünlükdə isə bölgədəki qloballaşma reaksiyası, Yaxın Şərq cəmiy-yətlərinin xüsusilə mədəniyyət, milli və dini şüurda ifadə olunan kimliyini qoruya bilməsi üçün şüuraltı cəhdləri, sərvətlərinə sahib olması üçün hegemoniyaya qarşı müqavimətləridir.

**Siyasi proseslər, qloballaşma və milli maraqlar**

Hesab edirik ki, dövlətlərin qarşılıqlı asılılıqlarının güclənməsinə, onların daxili və xarici funksiyalarının beynəlxalq aspekt əldə etməsinə baxmayaraq, milli siyasət və milli maraqlar daxili funksiyalarda öz üstünlüklərini davam etdirirlər. Başlıca milli maraqlar - ölkə daxilində asayişin təmin olunması, ehtiyatlara nəzarət edilməsi, dövlətin ölkə əhalisinin rifahına görə məsuliyyəti, qanunvericiliyin, vergi siyasətinin səmərəliliyi, daxili inkişafın sabitliyi və dövlətin öz gücünü artırması mahiyyətcə cəmiyyətin dövlət səviyyəsində

mütəşəkkilliyinin qorunub saxlanmasına yönəldilmişdir. Bu maraqlar dövlət siyasətinin hərəkətverici qüvvəsidir.

Qloballaşma şəraitində milli maraqlar öz əhəmiyyətini itirmir, bununla belə, şübhəsiz ki, mürəkkəbləşir, differensiasiyalaşır, yeni aspektlər əldə edir və öz mövcudluqlarının sərhədlərini aşkarlayır. Fransız alimi F.Moro-Defarj haqlı olaraq qeyd edir ki, "dövlət və dövlətin sərhədləri mövcudluqlarını davam etdirirlər. Əlbəttə, bu sərhədləri beynəlxalq ticarət, turizm, kapitalların yerdəyişməsi və informasiya axınları üçün açmağın bir çox üsulları vardır. Bununla belə, dövlətlər sərhəd rejiminin qanunvericiliklə nizamlanması hüququnu özlərində saxlayırlar. Nə qədər ki, suveren dövlətlər vardır, sərhədlərin keçilməsi hətta çoxlu çətinliklərlə bağlı olsa belə, bu sərhədlər də qalacaqdır"(Моро-Дефарж, 1996: 112)

Onu da qeyd etmək lazımdır ki, hər bir dövlətin daxili tələbatları və maraqları var ki, bunlar da onun xarici siyasətini bri çox məsələlərdə müəyyən edir. Daxili və xarici funksiyaların gerçəkləşdirilməsinin forma və metodları yetərincə fərqlidirOna görə də daxili və xarici siyasəti dövlətin yalnız bir fəaliyyət sahəsində birləşdirmək hələ tezdir.

Adətən, hüquqi ədəbiyyatda dövlətlərin daxili funksiyalarının inkişafında onların beynəlmiləşməsi, başqa sözlə, daxili funksiyalara əhəmiyyətli beynəlxalq aspekt verilməsi, onların xarici mühitlə sıx qarşılıqlı əlaqəsi, dövlətin daxili və xarici siyasəti arasında qarşılıqlı münasibət kimi vacib təmayüllər müşahidə olunur. Buradan da belə aydın olur ki, dövlətin daxili funksiyaları müstəsna olaraq öz şəxsi məsələsi kimi inkişaf edə, beynəlxalq birliyin maraqları nəzərə alınmadan fəqət milli maraqlara əsaslanan məqsəd və vəzifələrlə müəyyənləşə bilməz. Axı hər bir dövlət digər dövlətlərdən təcrid olunmuş vəziyyətdə deyildir. Dövlətlərin hamısı bir-biri ilə beynəlxalq birliyin "buxov"ları ilə, qlobal problemlərin həllində iştirak etmək zəruriliyi ilə bağlıdırlar. Ona görə də onlar öz maraqlarını həmin cəmiyyətin ümumi maraqları ilə uzlaşdırmalıdırlar.

**Dövlətlərin milli maraq** anlayışı və yürütdüyü siyasət əsasən subyektiv xarakter daşıyır. Bu bir qayda olaraq dövləti idarə edənlərin ölkəsinin maraq və imkanlarını necə qiymətləndirmələri və hakim elitanın hansı səriştəyə malik olmaları, dövlətin siyasi rejiminin fəaliyyət səmərəliliyi və hansı strateji doktrina daşıyıcısı olmaları ilə ölçülür (Həsənov, 2010: 272). Dövlətlərin təbii resurslar diapazonu kəmiyyət və keyfiyyət çeşidində onun siyasi müstəqilliyi, iqtisadi təhlükəsizliyi və dirçələşinin təməl bazasını təşkil etdiyindən beynəxalq geosiyasətdə təbii resursların faktoru müstəsna əhəmiyyət daşıyır.

Məlumdur ki, beynəlxalq institutlarda təmsil olunmada da xalqlar arasında mühüm hakimiyyət disbalansı mövcuddur. Məhz bu səbədən bəzi ölkələr başqalarına nisbətən beynəlxalq iqtisadi və siyasi gündəliyə təsir etməkdə daha az gücə malik olur və ticarət, eləcə də siyasi sazişlərə qoşulmaq üçün təzyiqi hiss edirlər. Geniş siyasi, iqtisadi qərarların hazırlanması səviyyəsində beynəlxalq qruplaşmaların az məsuliyyət göstərməsi isə milli demokratiyanı sarsıdır. Nəticədə, qloballaşmanın cari forması bir tərəfli olur və ən nüfuzlu dövlətlər tərəfindən formalaşır. Təbii ki, bu qaydalar inkişaf etməkdə olan və keçid dövründə olan dövlətlərə xüsusilə kömək etmir. "Qloballaşma artmaq və inkişaf etmək üçün güclü və dinamik qüvvə ola bilər". Əgər qloballaşma dövlətlər tərəfindən layiqincə idarə olunarsa, beynəlxalq səviyyədə davamlı və ədalətli inkişafın əsasları qoyula bilər. Buna görə, hamının əsas maraqlarına cavab verən açıq və birbaşa dialoqlar vasitəsiylə razılaşdırılmış qərarlar axtarışında inadla çalışmaq vacibdir (United Nations Conference on Trade..., 2000).

Yəni, qloballaşma dövlətlərin demokratiya institutlarının və cəmiyyətin demokratik idarəedilməsinin hərtərəfli və daha dolğun inkişafı üçün optimal şəraiti təmin etmək öhdəliyi baxımından, siyasi funksiyaların məzmununa da müəyyən dəyişikliklər etməkdədir. Professor İ.Lukaşuka görə "hazırda demokratik dəyərlərin qloballaşması baş verir. Demokratiya bəşəri

əhəmiyyətli prinsip kimi qəbul edilir. Ona olan hüquq beynəlxalq birlik tərəfindən getdikcə daha çox dəstəklənən qlobal hüquqa çevrilir" [Лукашук, 2000]. Əslində bu gün baş verməkdə olan hadisələr bunun əksini göstərməkdədir. Göründüyü kimi, günümüzdə qloballaşma beynəlxalq imperializmin, liberal kapitalizmin bütün dünyaya hakim olmasına xidmət edir və İslam dünyasının işğalına istiqamətlənib. Nəticə İslam dünyasını iqtisadi baxımdan asılı vəziyyətə salıb ona siyasi baxımdan hakim olmaqdır. Yuxarıda qeyd etdiyimiz kimi onlar məzhəblər, millətlər, tayfalar arasında qarşıdurma yaratmaqla bu niyətə xidmət ediblər. Son illərdə hərbi güçdən istifadə, işğalçılıq, təcavüzlə məqsədə doğru gedirlər və bu yolda nə siyasətin modernləşməsi, nə də kapitalist sisteminin əlində "atribut" kimi sipər etdiyi demokratiya, azadlıq, hüquq, insan hüquqları kimi anlayışlar praktik olaraq gözə alınmır.

Qloballaşma problemlərinin həllində əldə olunan uğurlar ayrı-ayrı alimlərə dövlətlərin funksiyalarının daxili və xarici funksiyalara bölünməsini köhnəlmiş elan etmək üçün əsas vermişdir. Çünki, onların fikrincə, qloballaşma daxili və xarici siyasət arasındakı sərhədləri aradan götürür. Bununla bağlı olaraq, funksiyaların vahid təsnifatının tətbiq olunması, onların həm ölkə daxilində, həm də ölkənin hüdudlarından kənarda gerçəkləşməsinin ümumiliyinin elan olunması haqqında təkliflər bildirilmişdir.

Ümumi funksiyaların beş qrupunu fərqləndirmək təklif olunur:

- iqtisadi – bu funksiyanın məzmununu iqtisadiyyatın normal fəaliyyətinin və inkişafının, xarici iqtisadi əlaqələrin təşkilinin və s. təmin olunması təşkil edir;
- siyasi – yaxud, təhlükəsizlik funksiyası dövlət və ictimai təhlükəsizliyin, sosial və milli razılığın, suverenliyin qorunmasının təmin olunmasına yönəldilmişdir;
- sosial – bu funksiyanın məzmununu əhalinin hüquq və azadlıqlarının müdafiəsi, insanların sosial tələbatlarının təmin olunması üzrə tədbirlərin həyata keçirilməsi, əhalinin zəruri həyat səviyyəsinin dəstəklənməsi, əmək, onun ödənilməsi, məişət və s. üçün lazımi şəraitin yaradılması təşkil edir;
- ideoloji – məqsədi müəyyən ideologiyanın, o cümlədən dini ideologiyanın saxlanması, təhsilin təşkili, elm, mədəniyyət və s.in dəstəklənməsidir;
- ekoloji - ətraf mühitin qorunması ilə bağlı funksiya. (Социально-политические и правовые проблемы развития...2001)

**Qloballaşma dövründə zəruri olan dövlət funksiyaları**

Qloballaşma dövründə hansı dövlət funksiyaları mütləqdir və gələcək rejimlərdə də belə olaraq qalacaqmı? Kornell Universitetinin professoru (ABŞ) Teodor Loui hesab edir ki, bu sualın cavabı siyasi aksiyaların əsl təhlilini tələb edir. Onun fikrincə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təqdim edə bildiyi hətta ən yaxşı mənbələrdən alınmış rəqəmlərin "öyrənilməsi" belə, siyasətin təhlili deyildir. İlk növbədə, siyasi prosesləri dövlətin funksiyaları kimi səciyyələndirmək lazımdır. Bunun üçünsə ictimai hüquq, dövlət idarəetməsi, klassik siyasi iqtisad ənənələrinə və siyasi fikrin digər mühüm istiqamətlərinə müraciət etmək vacibdir.

Loui səkkiz funksiyanın adını çəkir. Onun araşdırmalarına əsasən, bunlar bazar iqtisadiyyatının əsasını təmin edir və dövlət üçün mütləqdir. Söhbət "bazardan kənar"da yerləşən, onu qabaqlayan və varlı insanların öz sərvətlərini artırmaq üçün irəli çıxmalarına və bazar yaratmalarına qədər mövcud olmalı fəaliyyət formalarından gedir. Özəl bazar iqtisadiyyatının bəzi idarəçilik şərtləri: əldə etmə - qanun və asayişin təmin edilməsi; mülkiyyət üçün təminat; müqavilələr riayət edilməsinə nəzarət; mübadiləni həyata keçirmək üçün şərait yaradılması; dövlət mülklərini özəl sahibkarlara vermək üçün imkanlar yaradılması; izafi ictimai kapitalın təmin edilməsi; iş yerlərində tələbatın təmin edilməsi üçün şərait yaradılması; əmlaka vurulan ziyana görə allokasiya məsuliyyətinin təmin edilməsi; əmlaka vurulan ziyana görə

kompensasiya verilməsini təmin edən tədbirlər; cəmiyyətdə risk səviyyəsinin aşağı salınmasına yönələn tədbirlər.

Louinin fikrincə, göstərilən siyahı həm keçmişin, həm də gələcəyin iqtisadi inkişaf siyasətinin, başqa sözlə, kapitalizmin qloballaşması dövrünün öyrənilməsi ilə məşğul olan tədqiqatlar üçün gündəlikdə duran məsələdir [Loui, 1999: 113].

Hal-hazırda dövlət və hüquq nəzəriyyəsi elmində belə bir müddəa kök salmışdır ki, xalq hakimiyyətinin təmin olunması müasir dövlətin siyasi funksiyasının başlıca istiqamətini təşkil edir. Bu isə xalq tərəfindən üç səlahiyyətin: ölkədə xalqın adından dövlət hakimiyyətini həyata keçirməyə və bələdiyyə qurumlarında yerli məsələləri həll etməyə müvəkkil edilmiş nümayəndəli hakimiyyət orqanlarının formalaşmasında iştirakının; dövlət qərarlarının qəbulunda (məsələn, referendum yolu ilə) iştirakın; üçüncüsü, dövlət hakimiyyətinin həyata keçirilməsinə və qəbul edilmiş qərarların reallaşmasına nəzarət hüququnun gerçəkləşməsini nəzərdə tutur.

Dövlətin siyasi funksiyalarının reallaşması planında dövlət suverenliyi problemi daha çox diqqətəlayiqdir. Onun müdafiə olunması kimi, təmin edilməsi də təhlil edilən funksiyanın vacib aspektini təşkil edir. Stiven Krasnerə görə, beynəlxalq münasibətlər sferasında güclü aktorları tanımaq dövlət suverenliyi şərtlərindən biridir, bu müdafiə və yardımı təmin edir. Suverenlik, əhali sayından və ya coğrafi ölçüdən asılı deyil, o,dövləti öz təsir sahəsinə aid edən əsas aktorların, siyasi maraqlarından asılıdır. Bundan əlavə, suverenlik anlayışının mənasını müəyyənləşdirən ümumi qəbuledilmiş heç bir şərti model yoxdur. Heç də bütün dövlətlər tam müstəqilliyə cəhd etmirlər, bəziləri hüquqlu çalışacaq və bəzi, onların suverenliklərinin bir hissəsini Avropa Birliyi kimi daha geniş siyasi strukturlardan faydalanmaq məqsədilə güzəştə gedəcəklər.

Beynəlxalq siyasətdə, **suverenlik** hələ də hökm sürür. Kosovo, Gürcüstan və Qəzzada son böhranlar onu yada salır ki, siyasi liderlərin suveren dövlət qisminə tanınmanın cox dəyərli olduğunu dərk etdiklərindən onu əldə etməyə ümid edirlər. Tanınma hətta kiçik və zəif icma sərvətindən faydanmağı o cümlədən beynəlxalq statusu, diplomatik mühafizəni, təbii ehtiyatlara nəzarət etmək qabiliyyətini, emissiya mənfəəti (pul çap və digər rahatlığı bayraqları kimi aktiv və s.) və daha zəngin ölkələr və beynəlxalq maliyyə təşkilatlarından xarici yardıma çıxışı təklif edir.

Beynəlxalq tanınma əhali sayından və ya coğrafi ölçü kimi fiziki xassələrdən asılı deyil. O, həmçinin effektiv idarə və ya tam siyasi muxtariyyət dan da asılı deyil. Məsələn, Andorra BMT tam hüquqlu üzvüdür, lakin - İspaniya və Fransa arasında sıxışdırılmış olan ölkə - yalnız 300-dən bir az artıq kvadrat mili əhatə edir və yalnız 83.000 əhalisi var. Bu dövlətə Fransa prezidenti və İspaniya Urgell yepiskopu rəhbərlik edir. Onun Konstitusiya Məhkəməsinin dörd üzvündən ikisi Fransa və İspaniya tərəfindən təyin edilir. Andorra beynəlxalq aləmdə tanınmaması üçün heç də kiçik dövlət deyil. Bu fərq yalnız 10000 nəfər əhalisi və 13 kvadrat kilometr torpaq sahəsi olan, Sakit Okeanın Cənubundakı adada olan Nauraya aiddir.

BMT-yə üzv dövlətlərin 13-nün 100000 əhalisi və 30-nun 500.000 əhalisi var. Somalinin BMT-də yeri var və altı milyona yaxın əhalisi var, lakin səmərəli hökumət yoxdur. Tayvan, eyni zamanda, inkişaf edir və yaxşı siyasi idarə olunur, 20 milyon əhalisi var, yalnız 20 dövlət tərəfindən (190-dan çox dövlətin əvəzinə) tanınır (http://azerbaijan.news.az/index...).

Hüquqi ədəbiyyatda mütəmadi olaraq rast gəlinən bu fikir - qlobal problemlər qarşısında "əlahiddə dövlətin suverenliyi də geri çəkilir" tezisi qəti etiraz doğurur (Лукашук, 2000). Həmçinin, müstəqil "beynəlxalq-hüquqi suverenlik" kateqoriyasının mövcudluğu iddia

olunmaqdadır. Hesab edirik ki, bu cür iddialar qloballaşmanın mənfi təzahürlərindən biridir (Абдулове -Комаров, 2003).

Dövlət suverenliyindən imtina etmək təklifi dövlətin ərazi bütövlüyü prinsipindən imtina etməyə bərabərdir. Zənnimizcə, dövlətin heç bir qlobal marağı onun öz ərazisində dövlət hakimiyyətinin aliliyinin inkar edilməsinə gətirə bilməz. Lakin ümumbəşəri, ümumplanetar maraqlara əsaslanaraq, dövlətin özünün könüllü şəkildə öz müstəsna hüquqlarını məhdudlaşdırmağa razılaşması tam başqa bir məsələdir. Əks halda, iqtisadi və hərbi gücə malik olan hansısa dövlətin digər bir dövlətin daxili işlərinə, İraqa münasibətdə olduğu kimi, zorakılıqla müdaxiləsi qaçılmaz olur.

Dövlət suverenliyi – ötən dövrlərin arxaizmi olmayıb, hazırkı dövrün aktual hüquqi və siyasi kateqoriyasıdır. Xalqların öz adətlərinə, qayda-qanunlarına uyğun, dini və başqa normalar üzrə yaşamaq, öz ruhlarına yaxın olan dövlət quruluşunu seçmək, müvafiq siyasi rejimi bərqərar etmək arzusu ilə hesablaşmamaq olmaz. Əks təqdirdə, həmin xalqın öz həyat tərzini, dəyərlərini və dünyanı, ətraf aləmi dərk etməsini başqa xalqlara da zorla qəbul etdirməsi qaçılmaz olur. Əgər bu və ya digər dəyərin həqiqətən də bəşəri əhəmiyyəti varsa, o zaman onlar Yaponiya, Cənubi Koreya və s.də olduğu kimi, bütün xalqlar tərəfindən də könüllü qəbul ediləcək.

Bu baxımdan, Ümumdünya insan hüquqları Konfransının (Vyana, iyun, 1993-cü il) sənədlərinə istinad etmək olar. Burada göstərilir: "Demokratiya xalqın öz siyasi, iqtisadi, sosial və mədəni sistemini təyin etməkdə sərbəst ifadə olunan iradəsinə və onun həyatın bütün aspektlərində tam iştirak etməsinə əsaslanır". Beləliklə, belə bir qənaətə gəlmək olar ki, beynəlxalq birliyin dövlət suverenliyinin sərhədlərini adlamağa ixtiyarı yoxdur. Yalnız dövlətin özü müəyyən növ öhdəlikləri könüllü olaraq öz üzərinə götürə bilər və bu da dövlətin beynəlxalq birliyin üzvü kimi suveren hüquqlarından irəli gəlir (Щербакова, 2003:20).

Qloballaşmanın problemlərinin həlli müxtəlif qrup dövlətlərin hüquq və maraqlarını nəzərə almaqla mümkündür. Bunun üçün dövlətlər xarici investorların sosial yönümlü kapitalını milliləşdirməmək öhdəliyini qəbul etməlidirlər. Qloballaşma qlobal iqtisadiyyatı dəyişdirən, demək olar ki, istehsalın bütün sahələrini və digər biznes proseslərini müəyyənləşdirən çox real haldır. Sənayeləşmiş iqtisadiyyatlarda, bilik və məlumat getdikcə daha vacib əhəmiyyət kəsb etdiyindən, qlo- ballaşmaya bilik, təhsil və təlimin böyük təsiri var. Odur ki, qloballaşma təhsil sahəsində dövlət siyasətinin tələbini radikal olaraq artırır. Dövlətlər öz vətəndaşlarının təhsil səviyyəsini və ixtisasını yüksəltməyə çalışır, çünki rəqabət yüksək ixtisaslı insan resursları ilə aparıla bilər. Dövlətin rəqabətə qabiliyyətı, xüsusilə, intellektual və siyasi təbəqələrının beynəlxalq və daxili məlumatlarla öz vətəndaşlarını təmin edilməsindən asılıdır. Yoxsul ölkələr perspektivdə dövlətlərin iqtisadi və sosial bərabərsizliyin artmasına gətirib çıxaran "beyin axını" problemini yaşadığından, rəqabəti bu sahədə həmin ölkələrə tam gətirmək çox çətindir.

Qloballaşma dövlətlərin daxili və xarici siyasətləri arasında sərhədlərin silinməsinə təsir edir, xarici siyasətin həyata keçirilməsini və mənasını dəyişir. Diplomatiyada milli təhlükəsizlik, hərbi böhranlar, sammitlər ilə müqayisədə ticarət, texnologiya, valyuta və sairənin xüsusi əhəmiyyəti artır. Siyasət bir ölkə çərçivəsindən kənara çıxdıqda daha geniş problem dairəsini əhatə edir. Koordinasiyanın institusional təmini xarici siyasət istiqamətinin müxtəlif məlumatları həm dövlət daxili, həm də dövlətlər arası daha kəskinləşir.

Qloballaşma dövlətlərin təhlükəsizlik siyasətinin mahiyyətini transformasiya etdirir. İqtisadiyyat, maliyyə, yoxsulluq, ekologiya, etnik konfliktlərlə bağlı olan "yumşaq təhlükə-sizlik" probleminin rolu artır. "Sərt təhlükəsizlik" öz əhəmiyyətini saxlayır və daha çox dövlətlərin hərbi qarşıdurmasından yüksək texnologiylar sahəsində yarışmasına keçir. Beynəl-

xalq münsasibətlərdə gərginliyin çoxalması, xüsusilə də Yaxın Şərqdə baş verən son hadisələr inkişaf etməkdə olan ölkələrdə silahlanma yarışının artmasına gətirib çıxarır.

Qloballaşmada həmçinin milli institutları təhdid edən bütün neqativ halların təsbit edilməsi və onları qarşılaya biləcək beynəlxalq əməkdaşlıq formaları müəyyən edilməlidir. Prosesin effektli olması üçün milli proqramlar təsis edilməli və BMT çərçivəsində koordinasiya edilməlidir. Fərqli maraqlar daşıyıcısı olsalar da, ümumi sosial təyinat dövlətlərin qloballaşma dövründə iqtisadi təhlükəsizliyinin beynəlxalq hüquqi əsasını təşkil etməlidir. Dövlət iqtisadi artımın yüksək və stabil tempinin yaradan, geniş iqtisadi inteqrasiyasını təmin edən siyasətin qəbul edilməsi üçün məsuliyyət daşıyan, sosial müdafiəni lazımınca təmin edən, təhsil və digər sosial xidmətlərə ümumi imkanlar yaradaraq öz vətəndaşlarının rifahını genişləndirən, eləcə də sosial və iqtisadi inkişafı düzgün idarə edən mərkəz olaraq qalır.

Dövlət funksiyaları və rolunun əhəmiyyətli dərəcədə dəyişilməsi siyasi arenada dövlətin yüksək səviyyəli bacarıqlar üçün əhəmiyyətli dəyişiklik gətirməsinə səbəb olur. Dəyişiklik mal və xidmətlərin birbaşa istehsalının strateji planlaşdırma istiqamətində saxlamaq və müdafiə etmək məqsədilə özəl müəssisə və fərdi təşəbbüs üçün əlverişli şəraitin dəqiqləşdirlməsi və islahatına diqqətin artmasını göstərir. Paralel dəyişiklikdə dövlətin ağırlıq mərkəzi və onunla birlikdə güc mərkəzi yerini dəyişir. Dövlət kifayət qədər potensial olmadan dəyişikikləri müyyənləşdirə bilmir. Dövlətin dəyişiklik etmək qabiliyyəti müxtəliflik, rahatlıq, qeyri-müəyyənliyə açıq münasibəti və gələcəyə nikbinliklə bağlıdır.

Hal-hazırda mal, kapital və əmək mübadiləsi informasiya axının artması nəticəsində ölkələrdə dövlətlərarası və ya milli səviyyədə keçir. Getdikcə, dövlət məsləhət, məşvərət, danışıqların və müxtəlif səviyyələrdə hökumət və müxtəlif maraqlı qeyri-dövlət tərəflərin iştirakı ilə qərar qəbuluna planlaşma proseslərində "vasitəçi" kimi hərəkət etməli olur. Odur ki, dövlət bu gün özündə ümumi təşkilatçılıqla, maliyyələşdirmə və nəzarətlə bağlı olan fəaliyyət növlərini saxlayır, mümkün olan digər sahələrdə fəaliyyət növlərini özəl və bazar sektora ötürərək, istehsalçı və ya menecer şəklində dolayı yolla iştrakçılığından geri çəkilir. Qloballaşma ilə bağlı problemlərin həllində isə, dövlət və özəl sektorlar arasında, o cümlədən qlobal, regional və milli informasiya təşkilatları arasında böyük səviyyələrdə əməkdaşlıq lazımdır. Dövlət dünyada milli çərçivədə tərəfdaşlığı öyrədən və innovasiyanı yayan, fəaliyyətli sahibkarlıq strukturlarından geridə qalmasını aradan qaldırmalıdır. Uğurlu inkişafa nail olmada dövlətlərin mühüm rol oynaya bilməsi üçün hökumət fəaliyyətinin həcmi və səmərəliliyi önəmlli olmalıdır. İnsanların yaxşı yaşayışının inkişafı üçün demokratik dövlətin rolu tənzimləyici və dəstəklənən olmalı, yəni sərmayəsiz və nəzarətçisiz irəliləyiş olmalıdır.

Cəmiyyətin qloballaşmadan tam faydalanması və onun mənfi təsirini azaltması üçün, ölkələrin öz demokratik institutlarını və dövlət idarəetməsini gücləndirməsi və müasirləşdirməsi zəruridir. Ümumiyyətlə, güclü institusional bazası, eləcədə güclü sosial siyasəti və şəbəkələri olmayan ölkələr mənfi xarici təsirlərin öhdəsindən gələ bilmədiyi üçün qloballaşmanın mənfi təsirlərindən daha çox əziyyət çəkirlər. Qloballaşmada milli dövlətlər yerli, milli və beynəlxalq səviyyələr də təzyiqlərə davam gətirmək üçün yenilənməli, siyasi, iqtisadi və sosial qayda ların əsaslı təminatında və insan inkişafı üçün əlverişli şəraitin yaradılmasında mühüm güclü institusional bazaya, sosial siyasətə və şəbəkələrə malik olmalıdır. Bəzi hallarda milli dövlətlərin hüdudlarından kənara çıxan məsələlərin əhatə dairəsinin genişlənməsidaha çox açıqlıq, hətta dövlətləri hüquqi və iqtisadi institutların təkmilləşməsinə gəirib çıxaran islahatların keçirilməsinə təşviq edir, həmçinin daha çox rəqabət xeyrinə siyasətin qəbul edilməsini, qlobal və ya regional miqyasda məsləhətləşmələrin, formal danışıqların aparılmasını zəruri edir. Bu zaman ölkənin institusional konstruksiyası, onun sosial birlik və sosial ədalətlilik mexanizmləri, siyasi mədəniyyəti və onun rəhbərlik keyfiyyəti iqtisadi inkişafın dəstəklənməsində və sosial rifahının təbliğində mühüm rol oynayır.

Güclü demokratik dövlət qloballaşmanın üstünlüklərini müəyyənləşdirməli, əhalinin müəyyən təbəqələrinin daşıya biləcək xərclərini minimuma endirməlidir. Sadəcə olaraq qloballaşma dövlətdən daha açıqlıq ilə məşğul olmaq üçün potensialının yaxşılaşdırılmasını tələb edə bilər, lakin bu onun milli və beynəlxalq mənzərəsində əsaslı rolunu pozmur. İqtisadi sahədə dövlət müstəqil iştirakçıdan daha çox arbitrə çevrilir. İqtisadiyyatın daha çox mobilləşdiyi şəraitdə istehsalın yerləşdirilməsinə və investisiyaların cəlb edilməsinə ən yaxşı şəraitin yaranması üçün rəqabət mübarizəsi daha da kəskinləşir. Dövlətin daha çox cəlbedici şərtlərin yaratması yolu ilə milli iqtisadiyyatı canlandırmaq imkanları yaranır. Transmilli koorporasiyalar işi beynəlxalq sistem çərçivəsində qurmağa çalışırlar, dövlət bu sistemin formalaşmasında iştirak etsə də, daxili prioritet problemləri olur. Bəzən dövlət resursların mobilliyinin aşağı düşməsinə səbəb olur (miqrasiya qaydaları, torpağın xaricilərə satılmasına qadağalar, xarici investisiyalara və firmaların fəaliyyətinə məhudiyyətlər, xarici ticarətdə proteksionizm). İqtisadiyyatın beynəlxalq mobilliyini və biznesi qiymətləndirməyən, ölkənin mövcud siyasi şəraitinİə etinasızlıq göstərən hökumətlər gələcəkdə çətinliklərin aradan qaldırmasına imkan verən yeni oyun qaydaları yaratmalıdırlar. Çünki, dünya bazarlarında orta və kiçik ixracçı və idxalçıların sıxışdırılması tendensiyası gücləndikcə xarici ticarət əlaqələri inhisarçı birliklərin əlində təmərküzləşir. Məsələn, 1980-ci illərdə TMK-m fəaliyyəti ilə bağlı amerikan ixracı bütün ABŞ ixracının 84%- ni və idxalın 60%-ni təşkil etmişdir.

Dünya təsərrüfatlarının beynəlimləşdirilməsi milli təsərrüfatların xarici bazardan asılılığı şərtində özünü göstərir. İxraca gedən istehsalların payı (ixrac kvotası) və istehlak üzrə idxalın payı (idxal kvotası) artır. Hazırda 20-dən 30%-dək məhsul və o qədər də istehlak olunan resurs ixraca gedir və ya idxal hesabma ödənilir.

Dövlət və iri transmilli biznes maraqları daxilində artan sıçrayış fenomeni müşahidə edilir, onlar arasında çoxalan özgəninkiləşdirilmə obyektiv xarakter daşıyır. Necə ki, siyasət, sərhədlərin mövcudluğunu yaddan çıxarmaqla tez-tez qanunları təkmilləşdirdirir, onda biznes də milli qaydaların müdafiəsindən yan keçməkdə maraqlı olur. İqtisadi qlobal-laşma həmçinin qlobal bazar qüvvələrinin fəaliyyətinə imkan yaradan fərdi ölkələrin verdikləri qərarın nəticəsidir. İqtisadi qloballaşmanın siyasi məbəyində real olaraq qay-daları hansı ölkələrin təyin etməsi, hansı ölkələrin onların tərəfində olması və ən az gücə malik olduqda da beynəlxalq arenada siyasət kursunun yaradılmasına təsiri və bunun onlara faydalı olacaq bir şəkildə necə edilə bilməsi durur. Beynəlxalq rəqabətdə ölkələr üstünlüklərə malik olduğu sahələrdə qalib gəlir, üstünlüklərə malik olmadıqları sahələrdə isə məğlub olurlar və müvafıq sahələr istiqamətində beynəlxalq səviyyədə ixtisaslaşırlar, digərlərindən imtina edirlər.

Belə bir nəticəyə gəlmək olar ki, yuxarıda göstərilən obyektiv proseslər qlobal problemlərin həllində, beynəlxalq hüquq qaydalarının möhkəmlənməsində dövlətlərin əllə-rindən gələni əsirgəməməsindən başqa, hər hansı ölkəyə, demək olar ki, heç bir seçim vermir.

**Nəticə**

Beləliklə aydın olur ki, dünyanın sürətlənməkdə olan siyasi qloballaşması prosesi ilə əlaqədar olaraq yeni siyasi institutların yaranması və artıq fəaliyyət göstərənlərin isə transfor-masiyası baş verməkdədir. Dünyanın siyasi qloballaşması şəraitində dövlətin fövqündə duran siyasi institutların rolu və vəziyyəti onların təsirinin möhkəmlənməsi istiqamətində tamamilə yenidən nəzərdən keçirilir. Yeni siyasi, sosial və iqtisadi məqsədləri olan dövlətlərarası birliklər yaranmaqdadır. Dünya beynəlxalq münasibətlərin ikitərəfli və çoxtərəfli sazişlərlə və təşkilatlarla tənzimləndiyi fazadan daha yüksək dərəcəli siyasi inteqrasiyası olan beynəlxalq birliklərə keçir. Dövlətin fövqündə duran daha əhəmiyyətli siyasi institutlar ümumsiyasi və ümumiqtisadi standartlar formalaşdırır və kollektiv təhlükəsizlik sistemi yaradır. Lakin, hələ ki, onların fəaliyyəti bir çox hallarda ikili standartlala işləyir və dünya ölkələrinə münasibətdə fərqli yanaşmalar tətbiq edilir. Siyasi sahədə qloballaşmada beynəlxalq təşkilatların fəaliy-

yətləri dünyada baş verən siyasi proseslərin tənzimlənməsinə yönəldilir. Bu zaman o, beynəlxalq münasibətlərin elə bir modelinə əsaslanmalıdır ki, bu model ABŞ-ın və başçılıq etdiyi Qərb Bloku dövlətlərinin mənafeyinə deyil, dünya dövlətlərinin hamısının mənafeyinə xidmət etsin və dünyanın bütün ölkələrində demokratiya, insan hüquq və azadlıqları, milli maraqlar qorunsun, suverenlik, milli kimlik təhdid altına alınmasın.

**Ədəbiyyat**

BABAOĞLU, Hikmət (2014). Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-Çap

HƏSƏNOV, Əli (2010). Geosiyasət. Bakı, Aypara -3

HƏSƏNOV, Əli (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan

MEHDİYEV, Ramiz (2005). Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, XXI əsr yeni nəşrlər evi.

MƏCİDLİ, Füzuli (2010). Qloballaşmanın milli strukturlara və idarəetməyə təsiri. //Dirçəliş, № 149-150, s.273-282

ИЛЬИН, Михайл (2003). Политическая глобализация: институциональные изменения/ грани глобализации. М.: Альпина паблишер

КОСОВ, Г.В. (2008). Политическая концепция ислама: проблемы цивилизационного и политологического анализа: монография / Г.В.Косов. – Ставрополь

ЛАРСЕН, Стейн У. (1995). Моделирование Европы в логике Роккана // Полис, №1,

ЛОУИ, Теодор (1999). Глобализация, государство, демократия: образ новой политической науки // Полис: 9, №5

СТРАУС, С.М. (2005) Антиглобализм и антисемитизм / С.М.Страус // Неприкосновенный запас. №1(39).

ЮСИФЗАДЕ, Аида (2009).Глобапьные политические процессы современности в контексте Азербайджана. Баку, Нурлан.

BİLBİLİK, Erol (2008). Amerikan kuşatması, Büyük oyunun perde arkası, İstanbul: Filiz Kitab evi

BILGE, Suat (2006). Milletlerarası Politika. Ankara: İstanbul Üniversitesi Yayınları

CEVECIOĞLU, Koray(2004). Küreselleşme – yeni dünya modeli . Ankara: SBF Yayınları7.

İLHAN, Suat (2005). Türklerin jeopolitiği və Avrasyacılık. Ankara: Avrasiya Yayınları.

DREZNER, Daniel W. (2001).Qlobalization and Policy Convergense. İnternational Studics Association Published by Blascwell Publishers, 350 Main Street, Malden. MA02148, USA, 108 Cowley Road. Oxford OX4 1JF, UK.

KEOHANE, Robert – NYE, Josep(1971). Transnational Relations and World Politics, International Organization, Vol. 25, No. 3. Published by: University of Wisconsin Press

NAJJAR, F. (2005). The Arabs, Islam and Globalization / F. Najjar // Middle East Policy. № 3

SETHI, Harsh (1984). ‘Groups in a New Politics of Transformation’, Economic and Political Weekly, Vol 19 (7).

SHETH, DL (1983). ‘Grass-Roots Stirrings and the Future of Politics’, Alternatives, 9 (1)

STANLEY, Hoffman (2008). Theory and İnternational Relations. New York: The Free Press.

United Nations Conference on Trade and Development. Tenth session, Bangkok Declaration, Global Dialogue and Dynamic Engagement. 2000

WALLERSTEIN, Immanuel. (2009). Geopolitics and Geoculture. London: Cambridge University Press.

فضل الله العولمة السياسية، مكتبة سلطح، الكويت، 1999. ص.

عبد الحافظ، عبد الرشيد. الآثار السلبية للعولمة على الوطن العربي وسبل مواجهتها. القاهرة، 2005، ص.

العربي الأول لمناهضة العولمة. إسلام ويب. http://www.islamweb.net/media/print.php?id=4718
ا
إعلان "بيروت" مؤتمر مناهضة العولمة". قاسم صدير. - / http:// www almustaqbal. com. المستقبل. بيروت.

أجيج - العولمة لمناهضة المصرية المجموعة / http:// www. Ageg. net.

البديل. سورية في العولمة مناهضة نشطاء /http:// www .albadil. net.

شبكة الصهيوني الامريكي المشروع لب العولمة- http:// www. daawa. net/display/arabic/ الدعوة.

https://studopedia.su/15_106939_proekt-strategiya-vizhivaniya-mesarovicha--pestelya.html.

Platform of the international movement ATTAC | The international Attac ...
https://www.attac.org/en/whatisattac/international-platform

АБДУЛОВЕ М.И., КОМАРОВ С.А. Проблемы теории государства и права. СПб., 2003. http://pravo33.wordpress.com/2008/10/24

Глоссарий специальных терминов и понятий
konservatizm.org/.../books/130909073240.xhtml

ЛУКАШУК *Игорь (2000)*. Глобализация, государство, право, XXI век. М. http://pravo33.wordpress.com/2008/10/24

Месарович, Михайло- Пестел, Эдуард (1974). Стратегия выживания
https://studopedia.su/15_106939_proekt-strategiya-vizhivaniya-mesarovicha--pestelya.html.

МОДЕЛЬ Ян ТИНБЕРГЕНА: Как известно, Ян. Тинберген…finlit.online/.../model-tinbergena-16740.html

Моро-Дефарж Ф (1996).. Введение в геополитику. М.: Конкорд.
Теория Взаимозависимости studepedia.org/index.php?vol=1&post=33753

Социально-политические и правовые проблемы развития России в XXI веке. Калининград, 2001. с. 64-65 http://pravo33.wordpress.com/2008/10/24

Теория Взаимозависимости studepedia.org/index.php?vol=1&post=33753

Хроника ООН, июнь 2014 https://unchronicle.un.org/ru/article/1626

ЩЕРБАКОВА Н.В. (2003). О понятии «суверенитет» в условиях многонациональной Российской Федерации // Юридичес¬кие записки Ярославского гос. ун-та им. П.Г. Демидова. Вып. 7. Ярославль,. http://pravo33.wordpress.com/2008/10/24

http://azerbaijan.news.az/index.php?Lng=aze&Pid=17162

https://sputnik.az/russia/20180423/414998619/bmt-soyuq-muharibe-siqnali-verdi.html

http://poistine.org/velikiy-izrail-plan-sionistov-po-pereustroystvu-blizhnego-vostoka

https://www.theatlantic.com/politics/archive/2013/06/who-even-needs-the-nation-state-in-the-21st-century/276434/

https://oldgoro.livejournal.com/154510.html

50 years enough - Third World Traveler
www.thirdworldtraveler.com/50Years_Enough/50Years_En

World Vision International | For Children. For Change. For Life.
https://www.wvi.org/